

## YENİ AGENTLİYİN ƏSASNAMƏSİ TƏSDİQLƏNDİ

Prezident İlham Əliyev Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb. Fərmanla Agentliyin tabeliyində beş publik hüquqi şəxs yaradılıb.

SƏHİFƏ 2-də

# QIŞ TURİZMİNƏ HAZIRIQMI?



Yenə də daha çox MDB ölkələri və Yaxın Şərq regionundan olan turistlərin gəlişi gözlənilir. Ötən illə müqayisədə qiymətlərdə ciddi fərqlər olmayacaq.

Qış turizm mövsümünün açılmasına sayılı günlər qalıb. Adətən, ölkəmizdə qış turizmi dedikdə, Ağbulaq, Şahdağ və Tufandağ xatırlanır. İstər yerli, istərsə də əcnəbi turistlərin qış aylarında ən çox səfər etdiyi rayonlar Şahbuz, Qəbələ və Qusardır.

Turizm eksperti Kənan Hənifəyev deyir ki, hazırda turizm şirkətləri qış tur paketlərini təqdim etməyə hazırlaşır. Mütəxəssisin sözlərinə görə, yenilik nəzərdə tutulmayıb və cari ilin proqramı üzrə hərəkət edilir: “Bu il də cib yandıran qiymətlər daha çox qar olan istiqamətlərdə olacaq”.

SƏHİFƏ 10-da

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

18 NOYABR ŞƏNBƏ 2023 I 44 (4145)

Qiyməti - 40 qəpik

www.kaspi.az







## ERMƏNİSTANIN NÖVBƏTİ FİASKOSU

Beynəlxalq Ədalət Məhkəməsi 17 noyabr 2023-cü il tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı 10 iddiasından yeddisini rədd edib. Məhkəmə Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiq edib.

SƏHİFƏ 2-də



## İRANIN NÖVBƏTİ İKİÜZLÜ DAVRANIŞI

İranın İrəvandakı və Bakıdakı səfirlərinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı bir-birini tamamlamayan açıqlamaları Tehran rejiminin əsl xislətini ortaya qoymuş oldu.

SƏHİFƏ 5-də

## ERMƏNİ HİMAYƏDARLARININ YIRTILAN MASKALARI

# RİYAKARLIĞIN PİK HƏDDİ



ABŞ rəsmiləri Azərbaycanla təzyiq dilində danışmağın qeyri-mümkünlüyünü dərk etməlidirlər. Rəsmi Bakının bu ölkənin Konqresi qarşısında heç bir öhdəliyi yoxdur.

### TƏZYİQ KAMPANİYASI YENİ MƏRHƏLƏDƏ

Bir günlük antiterror tədbirlərindən sonra ABŞ-nin Azərbaycana qarşı təzyiq kampaniyası yeni mərhələyə keçib. Konqresdəki son dinləmələrdə çıxış edən ABŞ dövlət katibinin köməkçisi Ceyms O’Brayn ölkəmizlə bağlı əsassız, qərəzli fikirlər səsləndirməklə Vaşinqtonun növbəti riyakarlığını ortaya qoyub. Bu dinləmələrin keçirilməsinə ən böyük dəstəyi ABŞ-dakı erməni lobbisi verib.

### HEÇ KİMİN YARDIMINA EHTİYACIMIZ YOXDUR

Azərbaycanın ABŞ, onun Konqresi qarşısında hər hansı öhdəliyi yoxdur. Ölkəmiz güclü iqtisadiyyata sahibdir və heç bir ölkənin maliyyə yardımına ehtiyac duymur. Belə reallıq fonunda Paris və Vaşinqton Azərbaycanla təzyiq dilində danışmağın qeyri-mümkünlüyünü dərk etməlidir.

SƏHİFƏ 4-də



## VASSAL, FORPOST, BASTİON

Ermənistanın yeni himayədarı Fransanın dünyanın dörd bir yanındakı müstəmləkələri ilə necə davrandığını bilməyən yoxdur. Belə görünür ki, Afrika ölkələrinin gedib qayıtdığı yola Ermənistan indi çıxır.

SƏHİFƏ 3-də



## YÜKSƏK GƏLİR VƏD EDƏN SAHƏ

Azərbaycan məhsulları keyfiyyətinə və qiymətinə görə, həm MDB məkanında, həm də dünya bazarında rəqabət apara bilər. Bunun üçün potensial və geniş imkanlar var.

SƏHİFƏ 14-də

“QARŞINA MƏQSƏD QOYUB, ONA ÇATMAQ ÜÇÜN YOLLARINI DÜZGÜN HƏDƏFLƏSƏN, MÜMKÜNSÜZ HEÇ NƏ YOXDUR”

# MUSİQİDƏN HÜQUQA UZANAN YOL

Roman Qaraşov: “İradən, fərdi xüsusiyyətlərin olmasa, uğur kitablarını oxumaqla heç nə əldə edə bilməzsən. İnsan ilk olaraq özünü tanıyıb, kəşf etməlidir”.





“Hüquqşünaslıq ən təhlükəli peşədir. Sən cinayətkarla, yaxud zərərçəkənlərlə daim ünsiyyətdə olmağa məhkumsan. Hər hansı ciddi təhlükələr bəzən qaçılmaz olur. Hüquqşünas olmağa övlad özü qərar verməlidir ki, işinin bütün çətinliklərini sevsin”.

Onun karyera yolu musiqidən başlayıb, hüquqşünaslığa doğru irəliləyib. 10-cu sinifdə seçdiyi sahənin özünə uyğun olmadığına qərar verir və təhsilinə sıfırdan başlayır. Müsahibimiz Vəkillər Kollegiyasının üzvü, insan hüquqları üzrə ekspert, tanınmış hüquqşünas Roman Qaraşovdur.

SƏHİFƏ 8-9-da



## KÜL ALTINDA QALAN ŞƏHƏR

İtaliyanın üçüncü, dünyanın 48-ci ən çox səyahət edilən şəhəri olan Pompeyə hər il üç milyona yaxın turist səfər edir. Pompey irsi insanların qədim Roma haqqında anlayışına bu günə qədər də təsir etməkdə davam edir.

SƏHİFƏ 12-də



## NƏ YAZIBSA, HAMISINI GÖZƏL YAZIB

18 noyabr tanınmış bəstəkar Emin Sabitoğlunun xatirə günüdür. Bəstəkarın sənət yoldaşlarının, dostlarının onun haqqındakı xatirələri də yaradıcılığı qədər qiymətli və şirindir.

SƏHİFƏ 15-də



Yaxın Şərq Fransanı ikiyə bölüb

SƏHİFƏ 6-da



Paşinyan hökumətinin iç üzü

SƏHİFƏ 7-də



Ətin bahalaşması qaçılmazdır

SƏHİFƏ 11-də



Talassemiyalı uşaqlar üçün aksiya

SƏHİFƏ 13-də



“Qara qartal”ın qara günləri

SƏHİFƏ 16-da

# DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİNİN ƏSASNAMƏSİ TƏSDİQLƏNDİ



**Prezident İlham Əliyev Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb. Fərmanla Agentliyin tabeliyində beş publik hüquqi şəxs yaradılıb.**

Prezident İlham Əliyev Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb. "Report"un xəbərinə görə, Fərmanla "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə" və "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilib.

### SULARIN İSTİFADƏSİNƏ VƏ MÜHAFİZƏSİNƏ DÖVLƏT NƏZARƏTİ XİDMƏTİ

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra – Agentlik) tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Hidrogeoloji-Meliorativ Xidmət və Suların İstifadəsinə-mühafizəsinə Nəzarət İdarəsinin əsasında Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti yaradılıb. Agentliyin Aparatının işçilərinin say həddi 170 ştat vahidi, Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti işçilərinin say həddi cəmi 146 ştat vahidi, o cümlədən Xidmətin Aparatı üzrə 51 ştat vahidi və regional bölmələri üzrə 95 ştat vahidi müəyyən edilib.

### BEŞ PUBLİK HÜQUQİ ŞƏXS YARADILIB

Fərmanla Agentliyin tabeliyində beş publik hüquqi şəxs yaradılıb.

Agentliyin tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Regional Su Meliorasiya Xidməti;

● tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti;

● tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Meliorasiya Elmi Tədqiqat İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu;

● tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti;

● tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə"nin və tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu yaradılıb.

## 11 FƏALİYYƏT İSTİQAMƏTİ MÜƏYYƏNLƏŞİB

Agentlik haqqında Əsasnaməyə əsasən, qurumun 11 fəaliyyət istiqaməti olacaq. Bunlar aşağıdakılardır:

● müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

● müvafiq sahədə dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirmək;

● müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

● müvafiq sahənin inkişafını təmin etmək;

● Azərbaycan Respublikasının ərazisində su təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədbirlər görmək;

● tabeliyindəki qurumların balansında olan su təsərrüfatı obyektlərinin təhlükəsiz istismarının və etibarlı mühafizəsinin təmin edilməsi ilə bağlı tədbirlər görmək və onların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək;

● Azərbaycan Respublikasının ərazisində yerüstü və yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparmaq;

● su obyektlərinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarətini həyata keçirmək;

● torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədilə meliorasiya sahəsində xidmətləri inkişaf etdirmək, eləcə də suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək;

● su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin qarşısının alınması sahəsində tədbirləri müəyyənləşdirmək və onların həyata keçirilməsini təşkil etmək;

● su ehtiyatlarının inteqrasiyalı idarə olunmasını təmin etmək.

**AZƏRBAYCANIN QARABAĞIN ERMƏNİ SAKİNLƏRİ İLƏ BAĞLI SİYASƏTİ QƏBUL EDİLİR**

# ERMƏNİSTANIN NÖVBƏTİ FİASKOSU

**Beynəlxalq Ədalət Məhkəməsi 17 noyabr 2023-cü il tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı 10 iddiasından yeddisini rədd edib. Məhkəmə Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiq edib.**

Azərbaycan İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiyanın (CERD) tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı iş üzrə Beynəlxalq Ədalət Məhkəməsinin 17 noyabr 2023-cü il tarixli müvəqqəti tədbirlər barədə qərarını qeydə alıb. Bu barədə XİN-dən məlumat verilib: "Biz Məhkəmənin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edən, Ermənistanın Azərbaycanın Qarabağ üzərində uzun müddətdir qəbul edilmiş və beynəlxalq səviyyədə tanınmış suverenliyini şübhə altına alan tələbini rədd edən qərarını alqışlayırıq. Həmçinin diqqətəlayiq haldır ki, Məhkəmə Azərbaycanın bütün hərbi və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini də rədd edib".

Məlumatda bildirilir ki, Məhkəmə tərəfindən qeyd olunan tədbirlər Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasətini qəbul edir: "Bu, milli və ya etnik mənşəyindən



asılı olmayaraq bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə öhdəliyimizi əhatə edir. Azərbaycan heç vaxt erməni sakinlərini Qarabağdan çıxarmayıb və regionu tərk etməmək barədə Azərbaycanın çağırışlarına baxmayaraq, Ermənistana və digər ölkələrə köçmək onların qərarı olub. Azərbaycan öz Konstitusiyasına və müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, Qarabağın erməni sakinlərinin insan hüquqlarını Azərbaycanın digər vətəndaşları ilə bərabər əsasda müdafiə etməyə sadiqdir".

### AÇIQLIĞIN VƏ ƏMƏKDAŞLIĞIN ETİRAFI

Məlumatda o da qeyd edilir ki, Məhkəmənin Ermənistanın BMT agentliklərinin Qarabağ bölgəsinə səfərini asanlaşdırmaq və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığa dair tələbi ilə bağlı heç bir tədbir görməyi tələb etməməsi faktı Azərbaycanın bu sahədə göstərdiyi açıqlığın və əməkdaşlığın etirafıdır: "Bu, ölkəmizə qarşı irəli sürülən bütün ittihamları mahiyyətcə əsassız edir".

### SAXLANILAN SEPARATÇILARLA BAĞLI İDDİA RƏDD EDİLDİ

XİN-in bəyanatında vurğulanır ki, məhkəmə Ermənistanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qüvvədə olan maddələrinə uyğun olaraq hərbi təcavüz, separatizmi qızışdırmaq, terror aktları və s. ittihamlarla saxlanılan qanunsuz separatçı rejimlə əlaqəsi olan şəxslərlə bağlı Azərbaycanın istintaq tədbirlərinə dair Ermənistanın iddiasını eyni şəkildə təmin etməyib. Azərbaycan Ermənistanın və bütün digər tərəflərin qanuni istintaq tədbirlərinə müdaxiləsini dayandıracağını gözləyir. "Azərbaycan CERD üzrə öhdəliklərinə ciddi yanaşır", - deyə bəyanatda bildirilir.



# VASSAL, FORPOST, BASTİON

Ermənistanın yeni himayədarı Fransanın dünyanın dörd bir yanındakı müstəmləkələri ilə necə davrandığını bilməyən yoxdur. Belə görünür ki, Afrikanın gedib qayıtdığı yola Ermənistan indi çıxır.

RÜSTƏM QARAXANLI

Ermənistanın iki əsrlik sahibinə xəyanət edib Qərbdə yeni himayədar axtarması erməni xalqının müstəqil yaşamaq qabiliyyəti, bacarığı və belə görünür ki, həm də istəyində olmadığının göstəricisidir. Ötən həftə bu axtarış özünün məntiqi hədəfinə yetişib: Fransanın İrəvana bir neçə ədəd “Bastion” zirehli texnikasını göndərməsinə dair informasiya yayılıb və təsdiqini tapıb. Bunun ardınca ictimailəşən daha bir məlumata görə, ABŞ də Ermənistana bir sıra istiqamətlərdə yardım və təminat verməyə hazırlaşır. Okeanın o tayından gələn vədlər əsas etibarilə siyasi və maliyyə xarakterlidir. Bu hipotetik yardım Ermənistana Rusiya tərəfindən sıxışdırıldığı halda ediləcək. Söhbət İrəvanın enerji asılılığı və maliyyə sıxıntılarının qarşılanmasından getsə də, hər halda ABŞ-nin dünyadakı ikinci ən iri səfirliyinin Ermənistanda sadəcə bu ehtiyacların ödənilməsi üçün fəaliyyət göstərdiyinə inanmaq sadəlövhlük olardı.

## XƏYANƏT ALINLARINA YAZILIB

Ermənilər nicatı iki yüz illik hamiləri və sponsorları olmuş Rusiyaya arxa çevirib Qərbdə axtarırlar. Əslinə qalsa, bu xəyanət ermənilərin Qafqazda məskunlaşdıqları müddət ərzində ilk təcrübə deyil. Ötən əsrin əvvəllərində tarixi Azərbaycan torpaqlarında məskən salmış ermənilərin ilk müstəqil dövlətlərinə rəhbərlik edən daşnaklar da üzü Avropaya dönməyə cəhd göstərmiş və fiaskoya uğramışdılar. Vəziyyət o həddə çatmışdı ki, türkü özünə bir nömrəli düşmən seçmiş “Daşnaksütyun” liderləri Atatürk Türkiyəsinə müraciət edərək bolşevik Rusiyasına qarşı silahlı dəstək istəmişdilər.

Əvvəl Rusiya imperiyası, sonra sovetlərin arxasında daldalanan ermənilər Serj Sarkisyanın hakimiyyətinin ortalarınadək Moskvanın sadiq forpostu rolunun mahir ifaçısı qismində çıxış ediblər. O həddə ki, hətta Rusiyanın rəsmi şəxsləri İrəvanın Moskvanın Qafqazdakı “etibarlı forpostu” olduğunu bəyan etməkdə bir qəbahət görmürdülər. Bu vaxtdan etibarən ermənilər Rusiyanın borc müqabilində Ermənistanın olan-qalan infrastrukturunu əlindən aldığını və əvəzində heç nə vermədiyini dərk edib altdan-altdan Qərblə gizli sövdələşməyə start veriblər. ABŞ-nin ən böyük səfirliklərindən biri İrəvanda məhz bu dövrdə tikilib. Ermənistanda hazırkı hakimiyyətə müxalifətdə olan qüvvələrin bir qismi Sarkisyanın Paşinyan qarşısından “çəkilməsi”ni İrəvanın Qərbə doğru gələcək dreyfi üçün münbit platforma yaratmaq cəhdi hesab edirlər. Başqa sözlə, Sarkisyan hakimiyyəti Paşinyana əvvəldən hazırlanmış ssenari ötürüb ki, bu gün şahidi olduğumuz proseslər yaşansın.

## AFRİKADAN ERMƏNİSTANA

“Bastion”ların Ermənistana ötürülməsindən əvvəl erməni müdafiə naziri Parisə səfəri zamanı Fransa istehsalı iki ədəd radar sisteminin alınmasına dair müqavilə də imzalamışdı. Düzdür, bu komplekslərin hansı pulla alındığı və məbləğin nə zaman ödəniləcəyinə dair detallı məlumat yoxdur. Fransa kiməsə pulsuz nə isə verən ölkəyə oxşamır. Paris və Strasburqun yarıerməni merlərinin Azərbaycanla sərhədə doğru 3-4 yük maşını ərzaq gətirib, bir qədər sonra geri dönmələri aldadıcı təsəvvür yaratmamalıdır. Qarabağı tərk edən ermənilərin “Fransa tərəfindən qəbul ediləcəklərinə” dair məlumat çıxan kimi bu ölkənin İrəvandakı səfirinin tələsik və təlaşlı təkziblə çıxış etməsini də unutmamalıyıq. Belə baxanda, Ermənistana ötürülən silahın ciddi hərbi mahiyyəti yoxdur. Radarlar nəzəri baxımdan Ermənistanın hava məkanını qorumalıdır, ancaq onların Rusiya istehsalına əsaslanan KTMT sistemi ilə necə əlaqələndiriləcəkləri müəmma mövzusudur. Deyilənə görə, “Bastion”lar Ukrayna üçün nəzərdə tutulubmuş, ancaq Kiyevdə hesab ediblər ki, bu zirehli maşınlar artilleriya və raketlər qarşısında çox ürkək və etibarsızdırlar.



Bütün bunlar belə qənaətə gəlməyə əsas verir ki, Fransanın hərbi yardımı gerçək dəstəkdən daha çox hərbi məzmunlu təbliğat aksiyasının tərkib hissəsidir. Bir tərəfdən yerlilərin xoşuna gəlmək və Rusiyaya nifrəti artırmaq, digər tərəfdən isə bu yolla Moskvanı ölkədən çıxarıb onun yerini doldurmaq. Afrikadan biabırcasına qovulan Fransa üçün bu, həyati əhəmiyyət daşıyan həmlədir.

## RUSİYA QALASINDA FRANSIZ BASTİONU

İtalyan mənşəli söz olan bastionun mənası müdafiə və hərbi məqsədlərə xidmət edən möhkəmləndirilmiş istehkam, tikili deməkdir. Bu ifadə tarixdə daha çox qala döyüşləri zamanı populyar olub. Fransanın Ermənistana göndərdiyi ilk hərbi texnikanın “Bastion” adlanması görünür ki, təsadüfi deyil. Paris Ermənistanı yeni bastionu etməkdə israrlıdır. Avropa və bütövlükdə Qərb Rusiyanın Ukrayna cəbhəsində əldən düşməsindən istifadə edib Ermənistanda və ümumiyyətlə, Cənubi Qafqazda möhkəmlənmək istəyir. Paşinyan hökuməti bunun üçün lazımi şəraiti yaratmağa və iztirablara dözməyə hazır kimi görünür. İrəvanın da öz hesabları var - plan baş tutarsa, iki yüz illik qul yaşayışına son qoyub Qərbin qabaqcıl nailiyyətlərinə doğru yol açmaq. Ancaq qul necə deyərlər, ona görə qul deyil ki, bu vəziyyətdə yaşayır. Qul bu vəziyyətdən çıxmaq üçün cəhd etmədiyinə görə quldur. Ermənistan ilk baxışdan zəncirlərini sındırmaq istəyən qul təəssüratını yaratsa da, Qərbdə də Şərqdə olduğu kimi, “halva, halva deməklə ağız şirin olmur”. Fransanın dünyanın dörd bir yanındakı müstəmləkələri ilə necə davrandığını bilməyən yoxdur. Belə görünür ki, Afrikanın gedib qayıtdığı yola Ermənistan indi çıxır.

Fransa Ermənistanda bastion qurmaqda olsun. Rusiya hərbiyyəsi artıq iki əsrdir elə bu qədər də tarixi olan Gümrü qalasında möhkəmlənib və onu tərk etməyə hazırlaşmır. Tapdaq altında qalacaq Ermənistanın onsuz da zəif dövlətçiliyini hansı aqibət gözləyir?

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

VAŞİNQTON AZƏRBAYCANLA TƏZYİQ DİLİNDƏ DANIŞMAĞIN QEYRİ-MÜMKÜNLÜYÜNÜ DƏRK ETMƏLİDİR

# RİYAKARLIĞIN PİK HƏDDİ



ABŞ rəsmiləri Azərbaycanla təzyiq dilində danışmağın qeyri-mümkünlüyünü dərk etməlidirlər. Rəsmi Bakının bu ölkənin Konqresi qarşısında heç bir öhdəliyi yoxdur.



RUFİK İSMAYILOV

Bir günlük antiterror tədbirlərindən sonra ABŞ-nin Azərbaycana qarşı təzyiq kampaniyası yeni mərhələyə keçib. Konqresdəki son dinləmələrdə çıxış edən ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Brayn ölkəmizlə bağlı əsassız, qərəzli fikirlər səsləndirməklə Vaşinqtonun növbəti riyakarlığını ortaya qoyub. Bu dinləmələrin keçirilməsinə ən böyük dəstəyi ABŞ-dakı erməni lobbisi verib. Məlum dinləmələr və ölkəmizə qarşı yönələn qərarların qəbulu ilə bağlı rəsmi Bakının cavab addımları özünü çox gözlətməyib. Azərbaycan noyabrın 20-də keçirilməsi planlaşdırılan Vaşinqton görüşündən imtina edib, ABŞ rəsmilərinin ölkəmizə səfərləri təxirə salınıb. Vaşinqtona məlum bəyanatların ikitərəfli münasibətlərə ciddi zərbə vura biləcəyinə dair xəbərdarlıq ünvanlanıb.

### ERMƏNİ HİMAYƏDARLARININ YIRTILAN MASKALARI

ABŞ və Fransanın timsalında bu gün yaşadığımız və vaxtilə işğal faktına münasibətdə üzləşdiyimiz ikili standartların varlığı Bakını son anda ərazi bütövlüyünün bərpası məsələsində təşəbbüsü öz üzərinə götürməyə vadar edib. Prezident İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimizin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini öz gücünə arxalanaraq təmin etməsi vaxtilə ATƏT-in Minsk qrupu qılafına bürünən erməni himayədarlarının maskalarını da yırtıb. "Sülh göyərçini", "demokratiya carçısı", "münaqişənin sülh yolu ilə ədalətli həllinə dəstək olan" dövlətlər gerçək simalarını ortaya qoyublar.

## SEPARATİZMİ AYAQDA TUTAN MİLYONLAR

Vaxtilə işğalçını işğala məruz qalandan üstün tutan, Qarabağdakı separatçı rejim "rəhbərlərinin" ABŞ-yə səfərlərinə və ianələr toplamasına göz yuman Vaşinqton onların maliyyələşməsinə, dolayısı ilə separatizmin ayaq üstə durmasına dəstək olub. 1992-ci ildə Azərbaycana qarşı bədnam "907-ci düzəliş"in qəbulu, Qarabağdakı separatçılara minatəmizləmə adı altında ildə 10 milyon dollar vəsait ayrılması, separatçı rejimin bu ölkədə nümayəndəliyinin fəaliyyətinə göz yumulması deyilənlərə əyani misaldır. Halbuki hazırda Azərbaycanın işğaldan azad olunan ərazilərində bir milyona yaxın mina basdırılıb. Bunu vaxtilə Ermənistan silahlı birləşmələri, separatçı rejimin quldurları ediblər. Amma nədənsə ABŞ-nin bir vaxtlar separatçılara etdiyi məlum jesti özümüzə münasibətdə görmürük. Azərbaycan yenə öz gücünə arxalanaraq Qarabağın hər qarışını gözəgörünməz düşməndən təmizləyir.

## AZƏRBAYCANA ÖGEY MÜNASİBƏT

Xatırladaq ki, Ukraynanın Donbas, Gürcüstanın Abxaziya və Osetiya, Moldovanın Dnestryanı ərazilərindəki separatçılara münasibətdə ABŞ heç vaxt belə humanist davranmayıb. Qərb dövlətləri, xüsusən də ABŞ bu ölkələrin ərazi bütövlüyünü birmənalı dəstəkləyib, separatçılara qarşı sanksiyalar tətbiq edib. Nədənsə eyni yanaşma Azərbaycana münasibətdə özünü göstərməyib. Təsəvvür edin, ABŞ ötən 30 illik dövrdə işğal faktına görə bir dəfə də olsun Ermənistanı, bu ölkənin siyasi hakimiyyətini qınamayıb, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin icrası istiqamətində hər hansı addım atmayıb. Halbuki bu qətnamələrin qəbuluna səs verən bir ölkə kimi onun icrasını da işğalçı dövlətdən tələb edə bilərdi. Nəticə isə məlumdur. İşğal faktı ortadan qalxdıqdan sonra azad edilən ərazilərdəki vandalizm aktını bütün dünya gördü. Azərbaycanın bir milyondan artıq qaçqın və köçkününün pozulan hüquqları, ölkəmizə milyardlarla dollar həcmində vurulan zərər, minlərlə günahsız soydaşımızın erməni terrorunun qurbanına çevrilməsində birbaşa məsuliyyət daşıyan ölkələrdən biri də məhz ABŞ-dir.



Ceyms O'Brayn

## KONQRES QARŞISINDA HEÇ BİR ÖHDƏLİYİMİZ YOXDUR



Konqresdəki dinləmələrə gəlincə, Azərbaycanın ABŞ, onun Konqresi qarşısında hər hansı öhdəliyi yoxdur. Azərbaycan güclü iqtisadiyyata sahibdir və heç bir ölkənin maliyyə yardımına ehtiyac duymur. Belə reallıq fonunda Paris və Vaşinqton Azərbaycanla təzyiq dilində danışmağın qeyri-mümkünlüyünü dərk etməlidirlər. Azərbaycan olmadan nə Cənubi Qafqazda, nə də Mərkəzi Asiyada bu ölkələr də olmayacaqlar. Xarici İşlər Nazirliyinin bəyanatında da qeyd edildiyi kimi, 2001-ci ildə 11 sentyabr hücumlarından sonra məhz Azərbaycan hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla ABŞ tərəfinə öz yardım əlini uzadıb. Əfqanıstanda ABŞ tərəfi ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən biri də məhz Azərbaycan olub. Azərbaycan eyni zamanda, Əfqanıstanı tərk edən sonuncu tərəfdaş ölkə olub. Lakin belə çıxır ki, ABŞ tərəfi həmişə Azərbaycanın dəstəyini müvəqqəti hesab edib, amma unudulmamalıdır ki, tarix təkrarlana bilər. Münasibətlər birtərəfli ola bilməz.

Azərbaycan xalqı uzun illər bu riyakarlığı görüb və heç vaxt unutmayacaq. Azərbaycana diktə etmək istəyənlərə yeri göstəriləcək.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# İRANIN NÖVBƏTİ İKİÜZLÜ DAVRANIŞI



İranın İrəvandakı və Bakıdakı səfirlərinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı bir-birini tamamlamayan açıqlamaları Tehran rejiminin əsl xislətini ortaya qoymuş oldu. Bir daha şahidi olduq ki, İran Azərbaycana münasibətində səmimi deyil.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son bir həftədə İran rəsmilərinin artıq tarix olmuş Qarabağ məsələsi ilə bağlı bəyanatları Tehranın məkrli niyyətlərindən əl çəkmədiyini göstərir. Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini, bölgədə gələcək sülh və əməkdaşlıq üçün yeni reallıqlar yaratmasını özü üçün təhdid görənlərin siyahısında ilk yerdə molla rejiminin dayandığı heç kimə sirr deyil. Azərbaycanın mehriban qonşuluq və əməkdaşlıq çağırışlarına Tehran siyasi təxribatlarla cavab verir. Sözdə bir, əməldə isə başqa mövqe sərgiləyən İranın ikiüzlülüyünü bir daha Ermənistan və Azərbaycandakı səfirlərinin bir neçə günlük arayla fərqli bəyanatlar səsləndirməsində müşahidə etdik.

### MEHDİ SÜBHANİNİN HƏDYANLARI

Noyabrın 11-də İranın Ermənistandakı səfiri Mehdi Sübhani Azərbaycanın ərazi bütövlüyü və suverenliyini təhdid edən, beynəlxalq diplomatik qaydaları kobud şəkildə pozan "açıqlamaları" ilə yadda qaldı. İran səfirinin hədyanlarına diqqət yetirək: "Biz beynəlxalq hüquqa və BMT normalarına uyğun olaraq Ermənistan və Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, lakin bu o demək deyil ki, oradakı insanların hüquqları pozulmalıdır. Hesab edirik ki, Qarabağ xalqının (könüllü şəkildə bölgəni tərk edən erməniləri nəzərdə tutur - red.) və Qarabağ xalqının hər bir nümayəndəsinin hüquqları təmin edilməlidir, onların öz hüquqlarını reallaşdırmaq imkanı olmalıdır. Bu, heç kimin, o cümlədən Azərbaycanın gözardı edə bilməyəcəyi reallıqdır. Biz Qarabağ xalqının qanuni və legitim hüquqlarının təmin olunmasının tərəfdarıyıq".



Mehdi Sübhani

### GECİKƏN AÇIQLAMA

Azərbaycan tərəfinin kəskin etirazlarından sonra Tehranın Bakıdakı təmsilçisi İrəvandakı sözçünün "səhvini" düzəltməyə çalışıb. Lakin səfir Seyid Abbas Musəvinin açıqlamaları da əslində Tehranın ikili oyundan vaz keçmədiyini göstərir. "İranın prinsipial mövqeyi daim Qarabağın Azərbaycanın olmasından yana olub. Azərbaycanın ərazi bütövlüyünün bərpası və Qarabağın Azərbaycanın suverenliyinə qayıtması İran tərəfindən xoş qarşılanıb. Qarabağda olan ermənilərin hüquq və təhlükəsizliyinin təmini yalnız Azərbaycanın suverenliyi, qanunları ilə mənə tapır", - deyə o bildirib. Bu bəyanatın bir neçə gün gecikmə ilə səsləndirilməsi özü də molla rejiminin səmimiliyinə olan şübhələri qüvvətləndirir. İranın Ermənistandakı səfirinin təxribat xarakterli bəyanatından iki gün əvvəl isə, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Prezident İlham Əliyevlə iranlı həmkarı İbrahim Rəisi arasında konstruktiv və xoş atmosferdə keçən görüş olub. Hətta həmin görüşdə İran Prezidenti Qarabağ məsələsi ilə bağlı təqdirəlayiq mövqe ortaya qoyub. "Biz, həmçinin çox sevinirik ki, Qarabağ uzun illərdən sonra öz əzəli ərazisinə qovuşdu. Bu, Azərbaycandır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edə bildi. Ümid edirik ki, Qarabağ yenidən qurulacaq və bərpa olunacaq", - Rəisi deyib. Maraqlıdır ki, İran prezidentinin məlum açıqlaması qonşu ölkənin rəsmi mətbuat orqanlarında çox kiçik hissələrlə və ixtisarlarla təqdim edilib. Ümumiyyətlə, onun Qarabağ məsələsi ilə bağlı fikirlərinə əksər agentliklər tərəfindən toxunulmayıb. Məqsəd isə bəllidir, dost və qardaş hesab etdiyi, müsəlman azərbaycanlılara qarşı soyqırımılar törədən Ermənistanı küsdürməmək. Tehranın ikili standartları elə bu yanaşmada da aydın şəkildə sezilir. O da dəqiqdir ki, İran kimi ölkədə istər səfirlərin bəyanatları, istərsə də mediada ortaya qoyulan yanaşma bir mərkəzdən tənzimlənir. Yəni, İranın qərəzi hansısa ölkədaxili siyasi qüvvələrin yox, məhz Tehranın rəsmi mövqeyi kimi qəbul olunmalıdır.

## DAXİLİ İŞLƏRƏ QARIŞMAMAQ PRİNSİPİ

Qeyd edək ki, Azərbaycan istənilən dövlətlə ikitərəfli əməkdaşlığını bir neçə vacib prinsip üzərində qurur. Bu prinsiplərdən ən başlıcası ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmətdir. İkinci vacib məqam ölkələrin bir-birilərinin daxili işlərinə qarışmamasıdır. Tehrandakı molla rejimi Cənubi Azərbaycan məsələsi hər dəfə gündəmə gələndə Bakını "onun daxili işlərinə qarışmaqda" ittiham edib. Bəyanatlarda bunun ikitərəfli münasibətlərlə bağlı əməkdaşlıq platformasına zidd olduğu xüsusi qabardılıb. Lakin Qarabağdan könüllü olaraq gedən ermənilər məsələsində İran nədənsə bizdən tələb etdiyi "daxili işlərə qarışmamaq" prinsipini unudur. Sanki Qarabağ məsələsi Azərbaycanın daxili işi deyil. Hətta Ermənistan rəhbərliyi də bunun Azərbaycanın daxili məsələsi olduğunu açıqlayır. İran isə bu reallığı qəbul etmək istəmir.



## TEHRAN AZƏRBAYCANA MƏHKUMDUR

Amma bölgədəki reallıqların dəyişdiyini Tehran da qəbul etmək məcburiyyətindədir. Çünki qarşısında ərazisi işğal edilmiş, suverenliyi pozulmuş, məğlub Azərbaycan yoxdur. Hansı ki, əvvəlki dövrlərdə işğal faktına görə müəyyən məqamlara göz yummaq məcburiyyətində idi. İndi ərazi bütövlüyü və suverenliyini öz gücü və imkanları hesabına tam təmin edən, güclü, müstəqil siyasi kursa malik Azərbaycan var. Xarici siyasətini, əməkdaşlıqlarını da məhz onun üçün taleyüklü ümummilli məsələlərdə sərgilənən mövqelər əsasında qurur. İndi regionda elə durum yaranıb ki, Tehran Azərbaycana məhkumdur. Bakının maraqları ilə hesablaşmaq məcburiyyətindədir. Dünyanın çox tez dəyişən geosiyasi reallıqları fonunda Bakı ilə münasibətlərdə ikili oynamaq Tehran üçün böyük başağrısına çevrilə bilər. Çünki bölgədə özünün "qırmızı xətti" elan etdiyi, işğal faktına görə heç bir ciddi təzyiq göstərmədiyi, qucaq açdığı Ermənistan artıq xəncərini İranın kürəyinə saplamağa çox yaxındır.



Seyid Abbas Musəvi

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# Yaxın Şərq Fransanı İKİYƏ BÖLÜB




Avropa Komissiyası Fransada və bütövlükdə Avropada antisemitizmlə bağlı insidentlərin artmasını tənqid edib. AK-nin saytında yerləşdirilən məlumatda deyilir ki, son zamanlar Avropada antisemitizm hadisələrinin artması tarixin qaranlıq dövrünü xatırladır.



AZƏR NURİYEV

Yaxın Şərqdə bir aydan artıqdır davam edən müharibə digər ölkələrə təsirsiz ötüşmür. Hərbi əməliyyatlara qarşı etiraz aksiyaları keçirilir, qanlı döyüşlərə son qoyulmasına çağırışlar səslənir. Ərəb icmasının sıx məskunlaşdığı Avropa ölkələrində İsrail əleyhinə aksiyalar daha sərt xarakter alıb. Bu səbəbdən antisemitizm bir sıra ölkələr üçün problemə çevrilir. Xüsusən, Fransada bu məsələ artıq ciddiləşib. Prezident Emmanuel Makron hökuməti buna qarşı tədbirlər görmək, problemləri həll etmək əvəzinə dünyanın müxtəlif ölkələrini silahlandırır, qarşıdurma yaratmağa çalışır. Fransanın Ermənistanla bağlı yürütdüyü siyasət bunun bariz nümunəsidir. Görünən odur ki, Yaxın Şərqdə müharibə uzandıqca, bu, Fransa üçün problemlər yaratmaqda davam edəcək. Artıq etirazlar Fransa cəmiyyətini ikiyə bölüb. Bir tərəfdə İsraili müdafiə edənlər, digər tərəfdə fələstinlilərin mübarizəsinin haqq işi olduğunu bildirənlər yer alır. Avropa Komissiyası (AK) da Fransada və bütövlükdə Avropada antisemitizmlə bağlı insidentlərin artmasını tənqid edib. AK-nin saytında yerləşdirilən məlumatda deyilir ki, son bir neçə gündə Avropada antisemitizm hadisələrinin artması tarixin qaranlıq dövrünü xatırladan qeyri-adi səviyyəyə çatıb.


Marin Le Pen

### SAĞLAR BİR, SOLLAR DİGƏR CƏBHƏDƏ

Paris, Brüssel, Buxarest və digər Avropa şəhərlərində minlərlə insan antisemitizm əleyhinə aksiyalarda iştirak edib. Ötən həftənin sonu Parisdə antisemitizm əleyhinə keçirilən etiraz aksiyaları da ikitirəliyi açıq şəkildə büruzə verib. İlk dəfə olaraq ölkənin bütün əsas siyasi qüvvələri sağ qüvvələrlə (sollar istisna olmaqla) birlikdə nümayişə çıxıb. Minlərlə insan parlamentin hər iki palatasının spikerlərinin çağırışına səs verərək paytaxt və digər iri şəhərlərdə görünüblər. Bununla da oktyabrın 7-dən sonra ölkədə baş qaldıran antisemitizm hallarına qarşı etirazlarını nümayiş etdirmək istəyiblər. Aksiyalara ilk qoşulanlar arasında qatı radikal sağyönümlü hərəkatın lideri Marin Le Pen də olub. Solları təmsil edən "Ram olunmaz Fransa" hərəkatının lideri Jan Lyük Melanşon isə etiraz aksiyasında iştirak etmədiyini açıqlayıb. Bildirib ki, "etiraz Qəzzada qətliamlara yol verənlərə dəstəkdən başqa bir şey deyil". Bu da o anlama gəlir ki, Yaxın Şərqdə müharibə Fransa cəmiyyətini ikiyə bölüb. Bir tərəfdə antisemitlər, digər tərəfdə İsrailin son hərəkətlərini "qətliam" kimi qələmə verənlər. Solları təmsil edən qüvvələr Qəzza sektorunda insanların zorakılığa məruz qaldığı, İsrailin fələstinliləri sıxışdırdığı qənaətindədirlər.

### VAXTİLƏ HOLOKOSTU İNKAR EDİRDİLƏR

Maraqlıdır ki, sağlar vaxtilə Holokosta qarşı çıxmaları ilə məşhur idilər. Məsələn, fransalı siyasətçi və sağçı "Milli Cəbhə" Partiyasının keçmiş lideri Jan-Mari Le Pen Holokostla bağlı şərhlərinə görə 30 min avro cərimələnib də. Millətçi baxışları ilə tanınan 87 yaşlı siyasətçi televiziya proqramında nasistlərin qaz kameralarını "İkinci Dünya Müharibəsinin bir hissəsi" adlandırmışdı. Bundan sonra o, Holokostu inkar etməkdə və insanlığa qarşı cinayətlərdə ittiham olunub. Eyni sözlər onun qızı Marin Le Pen ilə açıq münaqişəyə də səbəb olub. Qızı atasını səhvlərindən dərs almağa və hətta siyasətdən getməyi düşünməyə çağırıb. Onun sözlərinə görə, atası "siyasi intihar edir".


Emmanuel Makron

## PARİS MOSKVANI İTTİHAM EDİR

Fransa həm də baş verənlərdə "Kreml izi"nin axtarışına çıxıb. Xarici İşlər Nazirliyi Rusiyanı Parisin bir neçə bölgəsində "Davud ulduzları" qraffiti ilə bağlı qalmaqal yaratmaqda ittiham edib. Rusiyanın Fransadakı səfirliyi ittihamları əsassız adlandırıb. "Davud ulduzları"nın Parisdə görünməsi Fransada antisemitizmin artması fonunda ciddi qalmaqala səbəb olub. Fransız siyasətçilər bunun antisemit hərəkət olduğu qənaətinə gəliblər. Çünki bu, nasistlərin yəhudiləri təqib etdiyi illəri xatırladır. Lakin hadisəni araşdıran hüquq-mühafizə orqanları o qədər də aydın nəticə çıxara bilməyiblər. Onlar qeyd edirlər ki, qrafitlər yəhudilərlə açıq-aşkar əlaqəsi olmayan təsadüfi seçilmiş evlərdə peyda olub.

Beləliklə, Fransa hakimiyyəti çətin durumdadır. Yaxın Şərqdə gərginlik nə qədər uzun çəkərsə, ölkədə bu istiqamətdə vəziyyət də gərginləşə bilər.




## ANTİSEMİTİZM HADİSƏLƏRİ MAKRONU ÇƏTİN VƏZİYYƏTƏ SALIB

Yaranmış gərgin vəziyyət Fransa prezidenti Emmanuel Makronu təcili toplantı keçirməyə məcbur edib. O, Yaxın Şərqdə gərginliyin artması fonunda ölkədə sosial birliyi qorumaq üçün bütün dini icmaların liderlərini Yelisey sarayına toplayıb.

Qeyd edək ki, Parisdə keçirilən antisemitizmə qarşı yürüş Fransada antisemitizm hadisələrinin artması fonunda partiyalararası birlik nümayiş etdirmək məqsədi daşısa da, Makronu çətin vəziyyətə salıb. Onun mitinqlərə qatılmaması birmənalı qarşılanmayıb. Makronun tədbirə qatılmamaq qərarı müxtəlif nümayəndələri və insan haqları qruplarının tənqidinə səbəb olub. 1890-cı illərdə ölkədə mübahisələrə səbəb olan bədnam işdə nahaq yerə casusluqda ittiham edilən yəhudi zabit Alfred Dreyfusun böyük nəvəsi Makronun yoxluğundan "bir az məyus olduğunu" deyib. Fransa Daxili İşlər Nazirliyi son bir ayda ölkədə 1100-dən çox antisemit insident qeydə alıb ki, bu da ötən il ərzində qeydə alınan rəqəmdən iki dəfə çoxdur.

# PAŞİNYAN HÖKUMƏTİNİN İÇ ÜZÜ



**Paşinyan komandası qısa müddət ərzində kifayət qədər varlanıb. 2018-ci ildə baş tutan "məxməri inqilab"dan əvvəl evsiz olan və kirayələrdə sürünən komanda üzvləri parlamentdə oturduqdan çox qısa müddət sonra İrəvanın ən bahalı yerlərində mənzillərə sahib olublar.**

FUAD ABASOĞLU

Ermənistan hökuməti dəfələrlə açıqlama verərək rüşvət və korrupsiyaya qarşı mübarizə tədbirlərinin sərtləşdiyini bəyan etsə də, real mənzərə başqadır. Müasir Ermənistan rüşvət və korrupsiya bataqlığında boğulur. Korrupsiya ilə bağlı cinayət işlərinin də sayında kifayət qədər artım var.

### RƏQƏMLƏR NƏ DEYİR?

Ermənistanın Korrupsiya ilə mübarizə komitəsinin sədri Sasun Xaçatryan hələ 2023-cü ilin mart ayında korrupsiya ilə bağlı cinayət işlərinin artdığını etiraf etmişdi. Komitə nə az, nə çox, 1003 korrupsiya işini araşdırırdı. Son aylar ərzində isə 286 nəfərlə bağlı cinayət işi məhkəməyə göndərilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə korrupsiya ilə bağlı cinayət işlərində 97%-lik artım müşahidə edilir. Ermənistanda hər həftə yüksək rütbəli məmurların kifayət qədər böyük məbləğdə pullarla bağlı korrupsiya faktları aşkarlanır. Korrupsiyaya qarşı mübarizə komissiyası hakim "Mülki müqavilə" partiyasının deputatlarına qarşı addım atmağa cəsarət edə bilmir.



### ORDUDA KORRUPSİYA

Ermənistanda korrupsiya və rüşvətin ən geniş yayıldığı təsisatlardan biri də ordudur. İmkanlı şəxslər korrupsiya sxemləri ilə övladlarını hərbi xidmətdən yayındırırlar. Külli miqdarda rüşvət alan erməni generalları iri mülklər, böyük fermalar, İrəvanın mərkəzində bahalı mənzillər alır, övladları bahalı maşınlarda gəzir, xarici səfərləri su yoluna döndərir, gecə klublarında bir dəfəyə minlərlə dollar xərcləyirlər. Ermənistan məhkəmələrində ordu mənsublarına qarşı açılmış kifayət qədər cinayət işi davam edir. Sözügedən şəxslər büdcəni talamaqda, satınalmalarda rüşvət sxemi həyata keçirməkdə ittiham edilirlər. Orduda rüşvətin yayılmasının əsas səbəbi Ermənistanda peşəkar hərbçi olmaq istəyənlərin sayının çox az olması, hərbi-vətənpərvərlik ruhunun, vətənə xidmət ideyasının iflasa uğramasıdır.

## EVSİZ GƏLİB EV SAHİBİ OLANLAR

Maraqlıdır ki, Paşinyan komandası qısa müddət ərzində kifayət qədər varlanıb. 2018-ci ildə baş tutan "məxməri inqilab"dan əvvəl evsiz olan və kirayələrdə sürünən komanda üzvləri parlamentdə oturduqdan çox qısa müddət sonra İrəvanın ən bahalı yerlərində mənzillərə sahib olublar. Beləl追inin arasında Ovik Ağazaryan, Matevos Asatryan, Vilen Qabrielyan, Arpi Davoyan, Qayan Yeqiazaryan, Arman Yeqoyan, Arsen Torosyan, Hayk Konjoryan, Rüstəm Bakoyan kimi deputatlar da var.

### KİRAYƏ PULU DİLƏNÇİLİYİ

Bununla yanaşı, bir çox deputat mənzili və villanı öz adına rəsmiləşdirməyərək dövlətdən kirayə pulu alır. Bu işdə daha çox qadın deputatlar fəallıq göstərirlər. Məsələn, Lilit Stepanyan 2020-ci ildə mənzil sahibi olsa da, bu yaxınlara qədər dövlət büdcəsindən kirayə pulu alıb. Digər qadın deputat Arpi Davoyan 2019-cu ildə İrəvanın mərkəzində bahalı mənzil alıb. Lakin hələ də bu günə qədər dövlət büdcəsindən kirayə üçün kompensasiya aldığı üzə çıxıb.



Lilit Stepanyan

Arpi Davoyan

Bütün bu faktlar Paşinyan komandasının miskin və rəzil durumda rüşvətə qurşandığını bir daha sübut edir. Tez-tez hökumət iclaslarında rüşvət və korrupsiya ilə mübarizə apardığını bəyan edən baş nazir isə, komandasının "hərəkətlər"inə göz yummaqla yetinir.

### DİGƏR HÖKUMƏT QURUMLARINDA RÜŞVƏT

Ermənistanın Daxili İşlər Nazirliyində (DİN) də rüşvət və korrupsiya ilə bağlı xəbərlərin ardı-arası səngimir. Bu qurumda rüşvət halları daha çox polis bölmələrinin rəisləri ilə bağlıdır. Məsələn, bu yaxınlarda DİN-in daxili təhlükəsizlik şöbəsində aparılan araşdırma müəyyən edib ki, polis bölmələrindən birinin rəisi vəzifə səlahiyyətlərindən istifadə edərək digər bölmənin əməkdaşına 300 min dram rüşvət müqabilində ona qulluq etməyi təklif edib. Bölmə rəisi digər bölmənin əməkdaşına rüşvət verərək, onun rəisi barədə kompromat məlumatlar əldə etməyi qarşısına məqsəd qoyub.

## ERMƏNİSTANDA PUL VƏ NÜFUZ UĞRUNDA MÜBARİZƏ

Ermənistanda digər icra hakimiyyəti strukturlarında da rüşvət və korrupsiya halları geniş yayılıb. Paşinyan tez-tez hakimiyyətində qanad və qolların olmadığını bəyan etsə də, müxtəlif fərdlər və klanlar arasında nüfuz, vəzifə və pul uğrunda güclü mübarizə gedir. Regionların icra hakimiyyəti strukturlarını ələ keçirmək, büdcəni talamaq, iri ferma və əkin sahələrinə yiyələnmək bu mübarizənin özəyini təşkil edir. Artıq erməni ekspertlər etiraf edirlər ki, bölgələrdə gedən bu talançılıq nəticəsində Ermənistandan miqrasiya şiddətli dərəcədə artıb. Bölgələr boşalır, sakinlər məmurların rüşvət və korrupsiyaya bulaşması səbəbindən işsiz və torpaqsız qalırlar. Bu isə ölkədən köçü sürətləndirir. Ermənistanda elə bölgələr var ki, son bir neçə ildə əhali sayı 2 dəfəyə yaxın azalıb.

Üzə çıxan korrupsiya və yeyinti sistemlərindən biri də deputatlara və nazirlərə məxsus şirkətlər vasitəsilə dövlət tenderlərində qalib gəlmək, büdcədən ayrılan pulları həzm-rabedən keçirməkdir. Bu şirkətlər dövlət tenderlərində qalib gəlir, böyük məbləğdə pulu əldə etdikdən sonra məhkəməyə müraciət edərək özlərini müflis elan edirlər. Ədliyyə sistemində hakim komandanın nüfuzunu nəzərə alsaq, bu sxemin kim tərəfindən idarə edilməsini də anlamaq o qədər çətin deyil.

Yuxarıda sadalananlardan məlum olur ki, özünü demokrat, Qərb dəyərlərinin qoruyucusu kimi xalqa sırıyan Nikol Paşinyan köhnə hökumətləri rüşvət və korrupsiyaya görə tənqid etsə də, əslində özü də bu sahədə kifayət qədər "ixtisaslaşıb". Paşinyan komandası rüşvət və korrupsiya bataqlığında boğulur.

ÖRNƏK Kaspi 18 NOYABR ŞƏNBƏ 2023 9

“QARŞINA MƏQSƏD QOYUB, ONA ÇATMAQ ÜÇÜN YOLLARINI DÜZGÜN HƏDƏFLƏSƏN, MÜMKÜNSÜZ HEÇ NƏ YOXDUR”

# MUSİQİDƏN HÜQUQA UZANAN YOL





SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



**Roman Qaraşov:** “Hüquqşünaslıq ən təhlükəli peşədir. Sən cinayətkarla, yaxud zərərçəkənlərlə daim ünsiyyətdə olmağa məhkumsan. Hər hansı ciddi təhlükələr bəzən qaçılmaz olur. Hüquqşünas olmağa övlad özü qərar verməlidir ki, işinin bütün çətinliklərini sevsin”.

Onun karyera yolu musiqidən başlayıb, hüquqşünaslığa doğru irəliləyib. 10-cu sinifdə seçdiyi sahənin özünə uyğun olmadığına qərar verir və təhsilinə sıfırdan başlayır. Qarşısına qoyduğu məqsədlə məktəb birincisi olaraq, arzuladığı fakültəyə qəbul olur. Yaşadığımız həyatın əməllərimizin nəticəsi olduğunu düşünür. Əzmi, nizam-intizamı, iradəsi ilə həyatını dəyişir.

Müsahibimiz Vəkillər Kollegiyasının üzvü, insan hüquqları üzrə ekspert, tanınmış hüquqşünas Roman Qaraşovdur. Uzun müddət ədliyyə orqanlarında və İqtisadiyyat Nazirliyində işləyib, həmçinin özəl sektorda rəhbər vəzifələrdə fəaliyyət göstərib.

## “ARZULADIĞIM İXTİSAS ƏN RƏQABƏTLİSİ İDİ”

● **Roman bəy, festivallarda iştirak edən, məşhur musiqiçilərdən dərs alan şagird necə hüquqa meyl etdi?**

● Məktəb illərində tar sinfinə gedir, çox yaxşı da ifa edirdim. Həftənin yeddi günü, günümün yarısı musiqi məktəbində keçirdi. Musiqi insana zövq verən, kamilləşdirən, həssas nəsnədir. Lakin bir müddət sonra bu peşənin xarakterimə uyğun olmadığının, ümumiyyətlə, arzumun bu olmadığının fərqinə vardım. Musiqidən tamamilə uzaqlaşdım. Hüquqşünas olmaqla bağlı fikrim qəti idi. Lakin ilkin mərhələdə heç kim bu fikrimə əhəmiyyət vermirdi. Çünki həqiqətən də, dərs qiymətlərim ürəkaçan deyildi. Arzuladığım ixtisas isə ən rəqabətlisi idi.

● **Repetitor dəstəyi alırdınız?**

● Tövsiyələr almaq zəruridir, lakin davamlı repetitor yanına getmək fikrimcə, vaxt itkisidir. Yola sərf etdiyim iki saatı da “mövzumu iki-üç dəfə də əlavə oxuyardım” düşüncəsi ilə yanaşırdım. Seçdiyim sahə humanitar idi və daha çox mütaliə tələb edirdi. Yalnız test cavablarını əzbərləyib imtahana girmək, bunun nəticəsində təhsil almaq tamamilə yanlışdır. Müəllimlər bir çox hallarda əzbərləmək üçün qısaldılmış məlumatlar verirdilər. Təəccüblənirdim ki, 500 səhifəlik kitabı necə kiçik konspektlə mənimsəmək olar. Mənim üçün öyrənmək, bilik daha vacib idi, nəinki hansısa testin sualına cavab vermək. Çünki mahiyyəti dərk etdikdə, hansı sual olsa, cavab vermək mümkündür.

## “DEYƏCƏKLƏR Kİ, SƏN HARA, HÜQUQ HARA?!”

● **Dərslərində doqquzuncu sinfə qədər kifayət qədər zəif olan şagird, necə oldu ki, universitetə birinciliklə qəbul oldu?**

● Hüquq fakültəsinə qəbul olmaq çox adamın arzusudur. Hər il ölkədə minlərlə gənc bunu istəyir, amma cəmi 25-50 arasında ödənişsiz yer olur. Mən imtahan verəndə 20 min abituriyent həmin ixtisası yazmışdı. Təsəvvür edin, 20 min insanla rəqabət aparırsan, amma sən hələ yolun heç başında da deyilsən. Özümə inam, iradə, əzm, nizam-intizam bu prosesdən məni qalib çıxardı. 2006-cı ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə məktəb birinciliyi ilə, ödənişsiz əsaslarla daxil oldum. Amma ətrafımda heç kim bu nəticəni gözləmirdi. Haqlı idilər də. Məsələn, ingilis dilində 25 sualdan 23-nə düz cavab yazmışdım, halbuki hərfləri 9-cu sinifdə öyrənmişəm. Bu, müəllimlərim üçün də gözlənilməz idi. Bu nəticəni almaq üçün, yadımdadır, özümə istirahət üçün cəmi 15 dəqiqə fasilə verir, yenə oxuyurdum. Neqativ fikirlər eşitməmək üçün planlarımı gizlədirdim. Düşünürdüm, deyəcəklər ki, sən hara, hüquq hara?! Hər bir neqativ informasiya insanda ruh düşkünlüyü yarada bilir. Əsas özümə inamım idi və bacardım.

## “VALİDEYN MƏCBURİYYƏTİ BURADA UĞUR QAZANDIRMIR”

● **Azərbaycanda övladlarının hüquqşünas olmasını istəyən, onlara təzyiq edən minlərlə valideyn var. Sizcə, hər kəs çox çalışmaqla hüquqşünas ola bilərmi?**

● “Yağış üçün dua edərkən palçığa batmaq ehtimalını da düşün”, - deyirlər. Hüquqşünaslıq ən təhlükəli peşədir. Sən cinayətkarla, yaxud zərərçəkənlərlə daim ünsiyyətdə olmağa məhkumsan. Hər hansı ciddi təhlükələr bəzən qaçılmaz olur. Hüquqşünas olmağa övlad özü qərar verməlidir ki, işinin bütün çətinliklərini sevsin. Lakin valideynlərin hüquqşünas övlad yetişdirmək, övladlarını hüquqşünas görmək istəkləri tükənmir. Ümumiyyətlə, istənilən peşədə valideynlərin övladlarına təzyiqi yanlışdır. İnsan sevdiyi işlə məşğul olmalıdır. Bu gün hüquq fakültəsində normal təhsil alan, amma sənətini sevməyən tələbələr çoxdur. Bu sahəyə sevərək gələnlər qədrini bilir, işləyir, valideyn məcburiyyəti bu sahədə uğur qazandırmır. Bir tük başdadırsa gözəllik, yeməkdədirsə pislikdir. Olduğun yer bu səbəbdən önəmlidir.

● **Siz tələbəlik illərindən bu sahədə fəaliyyət göstərməyə başlamısınız.**

● Bəli, çünki mən bu fakültəyə göstəriş üçün deyil, sevdiyim üçün, öz qərarımla gəlmişdim. 17 yaşımda universitetdə oxuduğum vaxtlarda qeyri hökümət Təşkilatlarının təşkil etdiyi debatlara qoşulurdum. Həmin debatlarda öyrəndiklərimi bu günün məhkəmə çəkişmələrində tətbiq edirəm. Fikrini deyəndə, dərs danışanda üzü qızaran insan idim, amma debatlardan sonra böyük auditoriyalar qarşısında çıxışlar edirdim. 18 yaşımdan artıq məhkəmələrdə təcrübə keçirdim. Universiteti bitirəndə peşəkar hüquqşünas vərdişlərim formalaşmağa başlamışdı. Ona görə də hərbi xidmətdən gələndən bir ay sonra sənədlərimi ədliyyə orqanlarına göndərdim və imtahanlardan keçdikdən sonra işlə təmin olundum.

> *İradən, fərdi xüsusiyyətlərin olmasa, uğur kitablarını oxumaqla heç nə əldə edə bilməzsən. İnsan ilk olaraq özünü tanıyıb, kəşf etməlidir. Həyatımıza özümüz keyfiyyət qatmalıyıq.*



## “KİMİNSƏ ƏMLAKLARINI SAYIB, BEYNİNİ MƏŞĞUL EDİRSƏNSƏ...”

● **“Hamı deyir ki, yaxşı yaşamaq istəyirik, amma sən bunun üçün nə edirsən?” sualını məktəblilərə ünvanlamışdınız. Bəs sizin cavabınız necədir? İnsan yaxşı yaşamaq üçün nə etməlidir? Bunun formulu varmı?**

● Xəyallarına getdiyin yol nə qədər uzun olarsa, o qədər insan tanıyır, o qədər çox yeni informasiyalar öyrənirsən. Ən əsası, olduğun mühit pisdirsə, bu o demək deyil ki, sən də mütləq pis olmalısan. Yaxud olduğun mühitdə hamı bir sahədə uğurludursa, sənin uğurun fərqli ola bilər. Yəni hər insan özünəməxsusdur. İradən, fərdi xüsusiyyətlərin olmasa, uğur kitablarını oxumaqla heç nə əldə edə bilməzsən. İnsan ilk olaraq özünü tanıyıb, kəşf etməlidir. Həyatımıza özümüz keyfiyyət qatmalıyıq. Yəni biz hamıya baxıb hərəkət etsək, heç vaxt uğur qazana bilməyəcəyik. Kiminsə əmlaklarını sayıb, geyimini müzakirə etməklə beynini məşğul edirsənsə, əmin ol ki, heç nə əldə etməyəcəksən. Amma sən qarşına məqsəd qoyub, ona çatmaq üçün yollarını düzgün hədəfləsən, mümkünsüz heç nə yoxdur. Konkret hədəfin olmalı, hədəfinə uyğun potensialını qiymətləndirməlisən. Harada özünü güclü hesab edirsənsə, oraya fokuslanmalısan. Məsələn, inkişaf etmiş ölkələrin təhsil sistemində belədir ki, hər bir fərd hansısa fənni mənimsəyirsə, oraya istiqamətlənir. Bizdə isə əksinə, harada zəiflik varsa, bunu qaldırmağa çalışırıq. Nəticədə hər şeyi bilən, amma heç nəyə nail olmayan fərd kimi qalırıq.

● **Nə üçün çox insan özünü tapa bilmir?**

● Cəmiyyətdə yetkinlik yaşında yeni həyata atılan gənclərin əksəriyyəti valideynlərin və kütlənin basqısı ilə mübarizə aparmaqla məşğuldur. Nəticədə özünü tapa bilmir. Ona hər şey diktə olunur, hər şeyə valideynlər nəzarət etmək, hökm etmək istəyirlər. Təbii ki, valideynin nəzarət və tövsiyələri lazımdır. Amma qədərində. Daim basqıya öyrəşən gənc buna adət edir və bu nəzarət olmayanda özünü idarə edə bilmir, nə istədiyi barəsində düşünmür.

## “AİLƏNİN QƏDRİNİ ZAMANINDA BİLMƏK LAZIMDIR”

● **Vəkil kimi yüzlərlə boşanma proseslərində iştirak etmisiniz. Maraqlıdır, boşanma səbəblərindən biri də özünü tanımamaq ola bilərmi?**

● Bəli. İnsanların əksəriyyəti həqiqətən, nə istədiklərini bilmirlər. Məsələn, “yoldaşım mənim işlərimə çox qarışır”, “evə bu saatda yox, bu saatda gəlsəm xoşbəxt olaram”, yaxud “filan geyimi geyinə bilsəm həyatım gözəl olacaq” kimi düşünürlər. Cəmiyyətə özümüzü özümüz kimi deyil, xəyal qurduğumuz insan kimi təqdim edirik. Ətrafımızda daim özünü təsdiq etmək ehtiyacı duyan o qədər insan var ki. Ya geyimləri, ya əmlakları, ya da özlərinə aid olmayan fikirləri ilə diqqət çəkməyə çalışırlar. Cəmiyyət də bunu çox asanlıqla həzm edir. Həyat öz tələbələrini öldürərək öyrədir. Hər şeyi hər kəs gec və ya tez dərk edir. Önəmli olan vaxtında düzgün qərarlar verməkdir. Ailənin qədrini zamanında bilmək lazımdır.



Fotolar: Rüfət Mikayılov/Global Media Group

## “MƏHKƏMƏ SÜBUTLARA ƏSASƏN HƏQİQƏTİ MÜƏYYƏN EDİR”

● **Roman bəy, bəzi insanlar məhkəmədə haqlı olduqları halda uduzduqlarından şikayət edirlər. Məhkəmə sistemində haqlı uduza bilərmi?**

● Bəli, ola bilər. Çünki məhkəmə formal həqiqəti müəyyən edir, obyektiv gerçəkliyi deyil. Qanunla müəyyən olunmuş qaydada sübutlar əldə etməlisən və onlar da məhkəməyə təqdim edilməlidir. Məhkəmənin qətnamədə bunu əsaslandırmaq imkanı olmalıdır. Məsələn, mülki işlərlə bağlı qayda odur ki, sən istənilən tələbini sübut etməlisən. Tutaq ki, dostuma 50 min manat pul vermişəm. Heç bir sənədim, sübutum yoxdur. Bu zaman məhkəmədə iddia qaldırsam belə, qalib gəlməyəcəyəm. Bu həqiqəti müəyyən etmədiyinə görə məhkəməni günahlandırmaq olarmı? Xeyr. Çünki məhkəmə sübutlara əsasən həqiqəti müəyyən edir.

● **Etiraf bu sistemdə nə dərəcədə əhəmiyyətlidir?**

● Əməlini etiraf etməyən insan cəmiyyətə təhlükəli insandır. Çünki insan səhvlərindən nəticə çıxarıb düzəlmək istəmirsə, deməli, heç vaxt düzəlməyəcək. Lakin “təqsirliyəm, üzr istəyirəm”, “səhv etmişəm” deyən insanlar çox azdır. Həqiqətən bu sözləri hiss edərək deyəndən gedir söhbət. Hətta elə cinayətlər var ki, səmimi peşmançılıq olarsa, məsuliyyətdən azad edilə bilər. Əgər insan öz səhvlərini görmürsə, özünü təkmilləşdirməklə məşğul deyilsə, gələcəyi qaranlıqdır.



● **Heç vaxt mükəmməl olmaq üçün çalışmadığınızı dediniz. Sizcə, insan mükəmməl olmalıdırmı?**

● Xeyr. Bu məsələ də illərimi alıb. Bu, həyatdır, mükəmməl olmağa ehtiyac yoxdur. Bizdə uğur qazanan insanların da qarşısına gözlənti qoyurlar. Bunu etdisə, bundan da böyüyü olmalıdır. Gözlənti də onun şüuraltına hopur və özünü dağa-daşa çırpır. Əslində bu cür olmalı deyil. İnsan özünü kimlərəsə deyil, özünə sübut etməlidir. Əsas insanın özünə məğlub olmamağı və güvənidir. Gənc yaşlarda mən də deyirdim niyə birinci yox, üçüncü olmalıyam? O qədər mənasızdır ki, əslində bu cür düşüncələr. Mükəmməl olub, xoşbəxt olan insan çox azdır. Çünki hər hansı sahədə fantastik göstəricisi olan insanlar özləri də o zirvəyə çatanda narahat olurlar, məsuliyyətlə hədsiz yüklənirlər. Zirvədən sonra başqa zirvəyə çatmasan eniş başlayır. Lakin vəzifəmizi icra edərək geri çəkilməyi bacarmalıyıq. Günəş də vəzifəsini bitirincə geri çəkilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi




# QIŞ TURİZMİNƏ HAZIRIQMI?

Yenə də daha çox MDB ölkələri və Yaxın Şərq regionundan olan turistlərin gəlişi gözlənilir. Ötən illə müqayisədə qiymətlərdə ciddi fərqlər olmayacaq. Bu il regionlarda yeni hotellər, hotel kimi fəaliyyət göstərən kənd evləri açılıb. Bu da turistlər üçün gecələməni daha ucuz və əlverişli edəcək.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda qış turizm mövsümünün açılmasına sayılı günlər qalıb. Adətən, ölkəmizdə qış turizmi dedikdə, Ağbulaq, Şahdağ və Tufandağ xatırlanır. İstər yerli, istərsə də əcnəbi turistlərin qış aylarında ən çox səfər etdiyi rayonlar Şahbuz, Qəbələ və Qusardır.

Bəs bu il vəziyyət necə olacaq? Qarabağ bu il bu siyahıda yer alacaqmı? Ümumiyyətlə, Azərbaycanın qış turizmi ilə bağlı hədəfləri nələrdir?

## HƏDƏF DAHA ÇOX TURİST CƏLB ETMƏKDİR

Dövlət Turizm Agentliyindən "Kaspi" qəzetinə verilən məlumata görə, qurumun əsas hədəfi ölkəyə daha çox əcnəbi qonağın cəlb edilməsinə nail olmaq, hədəf bazarlarda müvafiq təbliğat işlərini artırmaq, ölkələrin coğrafiyasını genişləndirmək, eləcə də sənayenin fəaliyyətinə dəstək göstərmək, yeni turizm məhsullarının yaradılmasına nail olmaqdır: "Ölkə üzrə hava şəraitindən asılı olaraq adətən dekabrın 15-dən etibarən qış mövsümünə start verilir. Xarici ölkələrdə təşkil edilən beynəlxalq sərgilərdə və tədbirlərdə il boyu ölkənin qış turizm imkanları və qış turizm məhsullarının, dağ-xizək mərkəzlərinin tanıtımı və təbliğatı həyata keçirilir. Yay turizm mövsümünün sonlarından etibarən ölkədə fəaliyyət göstərən qış turizm mərkəzlərində hazırlıq işlərinə başlanılır və turistlərin qəbulu üçün hazır vəziyyətə gətirilir. Bütövlükdə, qış mövsümündə də təbiət, mədəni, sağlamlıq, qastronomik və digər ənənəvi turizm istiqamətləri üzrə işlər davam etdirilir".

## AZƏRBAYCANA SƏFƏR EDƏNLƏRİN SAYI İKİ MİLYONA ÇATACAQ?

Agentlik ilin sonuna kimi Azərbaycana səfər edənlərin sayının iki milyona çatacağını proqnozlaşdırır: "Cari ilin yanvar-oktyabr ayları üzrə ölkəyə 1 724 218 xarici ölkə vətəndaşı səfər edib. İlin sonuna kimi Azərbaycana səfər edənlərin sayının iki milyon nəfərə çatmasını proqnozlaşdırırıq. Həmçinin qış mövsümünün davamı olaraq növbəti ilin yanvar-mart aylarında da bu illə müqayisədə artımın olacağı proqnozlaşdırılır. Ümumilikdə isə növbəti il üçün bu illə müqayisədə xarici ziyarətçilərin sayında 20 faiz artım olması hədəflənir".

## MDB, YAXIN ŞƏRQ, AVROPA...

Hazırda ölkə üzrə 3 əsas qış turizm mərkəzi - "Şahdağ" Turizm Mərkəzi, "Tufandağ" Qış-Yay Turizm Kompleksi və Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən "Ağbulaq" İstirahət Mərkəzi turistlərə xidmət göstərir. Dövlət Turizm Agentliyinin məlumatına əsasən, qış turizm destinasiya-larına daha çox MDB ölkələri və Yaxın Şərq regionundan olan turistlər üz tuturlar. Həmçinin Avropa bazarından olan turistlərin də daha çox səfərlərinin təmin edilməsi istiqamətində işlər aparılır: "Müasir infrastruktura malik qış turizm mərkəzlərinin mövcudluğu ölkəmizdə qış idman növləri üzrə beynəlxalq tədbirlərin keçirilməsinə şərait yaradır. Qeyd edək ki, Azərbaycan 2024-cü ildə Beynəlxalq Xizək Alpinizmi Federasiyasının Plenar Assambleyasına və xizək alpinizmi üzrə beynəlxalq yarışa ev sahibliyi edəcək".










## QIŞ TURİZMİ QARABAĞDA

Qarabağ bölgəsində qış turizm potensialının inkişaf etdirilməsinə gəldikdə isə, qurumdan bildirildi ki, Kəlbəcər və Laçın rayonları qış turizminin inkişaf etdirilməsi üzrə geniş potensiala malikdir: "Qış aylarında havanın temperaturu, yağıntılı və qarlı günlərin sayı, relyef, dağın hündürlüyü və meyilliliyi kimi amillər nəzərə alınaraq bu ərazilərdə qış turizm mərkəzlərinin yaradılması məqsədəuyğun hesab edilə bilər. Xüsusilə Kəlbəcərin potensialı nəzərə alınaraq burada sağlamlıq turizmi və dağ-xizək mərkəzlərinin birlikdə turizm klasteri formalaşdırmasına şərait yarada bilir. Hazırda mart ayından etibarən Şuşaya təşkil olunan turlar davam etməkdədir. Yaxın gələcəkdə Suqovuşan istirahət parkına və Talış kəndinə turistik turların təşkil edilməsi də planlaşdırılır".

## ƏMƏKDAŞLAR QONAQPƏRVƏRLİK TƏLİMLƏRİNƏ CƏLB OLUNUBLAR

Qış turizminin ən sevilən yerlərindən olan "Şahdağ" Turizm Mərkəzində də dekabrın 15-dən qış mövsümünə start verilməsi planlaşdırılır. Mərkəzdən qəzetimizə verilən məlumata görə, həm kompleksin ərazisində olan hotellərdə, həm kanat xətlərində, eləcə də qonaqlara təqdim olunacaq qış əyləncələrində son tamamlama işləri həyata keçirilir: "Eyni zamanda ötən aylar ərzində qonaqlara təqdim olunan turizm xidmətlərinin keyfiyyətinin daha da artırılması məqsədi ilə kompleksin əməkdaşları qonaqpərvərlik təlimlərinə cəlb olunublar, onların peşəkarlıq səviyyəsi artırılıb. Qarşıdakı qış mövsümündə, ötən il olduğu kimi, Şahdağ ziyarətçiləri üçün müxtəlif musiqili-əyləncəli proqramların, qış idman növlərinə aid idman yarışlarının və digər turizm yönümlü tədbirlərin keçirilməsi nəzərdə tutulub".

Məlumat üçün bildirək ki, cari ilin yanvar-oktyabr aylarında "Şahdağ" Turizm Mərkəzində gecələyənlərin sayı 60.000 nəfər, kanat yollarından istifadə edənlərin sayı isə 133.000 nəfər təşkil edib. Bəs turizm şirkətləri bu mövsümə necə hazırlaşıb?

## EKSPERT: "YENİLİK NƏZƏRDƏ TUTULMAYIB"

Turizm eksperti Kənan Hənifəyev deyir ki, hazırda qış turizm şirkətləri tur paketlərini təqdim etməyə hazırlaşır. Mütəxəssisin sözlərinə görə, yenilik nəzərdə tutulmayıb və cari ilin proqramı üzrə hərəkət edilir: "Bu il də cib yandıran qiymətlər daha çox qar olan istiqamətlərdə olacaq. Məsələn, şimal, şimal-qərb istiqamətində bahalaşma digər zonalara nisbətən daha çox hiss ediləcək".

### "BU İL GECƏLƏMƏ DAHA UCUZ VƏ ƏLVERİŞLİ OLACAQ"

"Turizm Peşəkarları Təşkilatı"nın sədri Ceyhun Aşurov deyir ki, ötən illə müqayisədə qiymətlərdə ciddi fərqlər olmayacaq: "Qış turizmi dedikdə, adətən, xizəklə sürüşmək nəzərdə tutulur. Amma, qış fəslinin özünün də gözəlliyi var. Bəzi ölkələr var ki, ümumiyyətlə, qışı yaşamır. Bu fəsildə səyahət etmək onlar üçün çox maraqlıdır. Bu il də ərəb turistlərin sayının çox olacağı qış fəsli gözlənilir".

Mütəxəssis deyir ki, bu il regionlarda hotel kimi fəaliyyət göstərən kənd evləri, yeni hotellər açılıb: "Şahdağ və Qəbələdə qış turizm məkanlarının yaxınlığında kifayət qədər yeni kənd evləri, hotellər açılıb ki, bu da orada gecələməni daha ucuz və əlverişli edir".

Mütəxəssis sonda vurğuladı ki, quru sərhədlərin bağlı olmasına baxmayaraq, daxili turizm potensialımız yüksəkdir: "Yeni il günlərində hotellərdə tələbat yüksək səviyyədə olur. Bu səbəbdən hotellərdə qiymətlər paket halında təklif edilir".



# Ətin bahalaşması qaçılmaz reallıq kimi


Foto: Sabir Məmmədov/Global Media Group

Otlaq sahələrinin azalması kəndliyə mal-qaranı saxlamağı çətinləşdirir. Bu da ümumi bazara çıxarılan ətlik heyvanların sayına təsir göstərir. Örüş və otlaqların azalması isə əkin sahələrinin genişlənməsi ilə bağlıdır.


ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda iribuynuzlu və xırdabuynuzlu heyvanların sayı kəskin azalıb. 2023-cü il oktyabr ayının 1-nə iribuynuzlu heyvanların sayı iki milyon 533.1 min baş, xırdabuynuzlu heyvanların sayı isə yeddi milyon 223.2 min baş təşkil edib. Dövlət Statistika Komitəsinin apardığı hesablamalara görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu heyvanların sayı 4.3 faiz və ya 113.4 min baş, xırdabuynuzlu heyvanların sayı isə 8.9 faiz və ya 705.1 min baş azalıb. Cari ildə iribuynuzlu və xırdabuynuzlu heyvanların sayı azalaraq son 10 ilin ən aşağı həddinə düşüb. Azalma fonunda ətin qiyməti də bahalaşır. Prosesin qarşısını almaq üçün nələr edilməlidir?

### TƏLƏB TƏKLİFİ ÜSTƏLƏYİRSƏ...

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü, deputat Azər Badamov "Kaspi" qəzetinə açıqlamasında dedi ki, qiymətlərin bahalaşması heyvan sayı ilə bağlıdır: "Ətin qiymətinin tənzimlənməsinə dövlət müdaxilə etmir. Çünki bazarda qiymətlər bazar iqtisadiyyatına uyğun idarə olunur. Təklif və tələbdən asılı olaraq formalaşır. Tələb təklifi üstələyirsə, qiymətlərdə artım baş verir. Ət son iki ildə ən çox bahalaşan malların sırasındadır. Ətin qiymətinə təsir edən əsas amillərdən biri ölkə üzrə iri və xırda buynuzlu heyvanların sayının kəskin azalmasıdır. Sayın azalması təklifin azalmasına gətirib çıxarır. Bu da bahalaşmaya yol açır. Mal-qaranın sayının azalmasının isə otlaq sahələrinin azalması ilə bağlı olduğunu düşünürəm".

### BÜTÜN SAHƏLƏR ƏKİNÇİLİYƏ VƏ BAĞÇILIĞA CƏLB OLUNUR

A.Badamov heyvan sayının azalması ilə bağlı bildirdi ki, kəndlinin otlaq sahəsi olmadığı üçün bu proses baş verir: "İntensiv təsərrüfatlarda bəslənilən ətlik mallar qapalı şəraitdə yetişdirilir. Mal-qaranın çəki yığması üçün istifadə edilən yemin tərkibinə daxil olan komponentlər əsasən xaricdən idxal olunur. Xaricdən idxal olunan yem komponentlərinin qiymətlərində artımın baş verməsi də ətin maya dəyərinə təsir göstərir. Otlaq sahələrinin azalması kəndliyə mal-qaranı saxlamağı çətinləşdirir və sayını azaldır. Bu da ümumi bazara çıxarılan ətlik mal və heyvanların sayına təsir göstərir. Örüş və otlaq sahələrin azalması isə əkin sahələrinin genişlənməsi ilə bağlıdır. Son illər təyinatından asılı olmayaraq əkin aparmağa uyğun bütün sahələr əkinçiliyə və bağçılığa cəlb olunur. Bu da heyvanların yem bazasının azalmasına və bahalaşmaya səbəb olur".



### HEYVANDARLIĞIN İNKİŞAF ETDİRİLMƏSİ SÜRƏTLƏNMƏLİDİR

Millət vəkilinin sözlərinə görə, bahalaşmaya son qoymaq üçün müəyyən tədbirlər görülməlidir: "Ətin qiymətinin bahalaşması hər bir vətəndaşın bu məhsula əlçatanlığını məhdudlaşdırır. Ona görə də, ətin qiymətinin tənzimlənməsi və bazarda bolluğun yaradılması üçün tədbirlər görülməlidir. Bu tədbirlərin tərkib hissəsi kimi ilk növbədə işğaldan azad olunmuş ərazilərdə heyvandarlığın inkişaf etdirilməsi sürətləndirilməlidir. Bu ərazilər əvvəllər də ölkəmizin ət tələbatının ödənilməsində əhəmiyyətli rol oynayıb. İndi sahibkarlara yenidən həmin ərazilərdə heyvandarlıq komplekslərinin tikilməsi üçün şərait yaradılmalıdır. Amma bu, uzunmüddətli prosesdir".

## ƏTİN İDXALI PROSESİ ASANLAŞDIRILMALI, RÜSUMLAR AZALDILMALIDIR

Deputatın fikrincə, tədbirlər görülməsə, yaxın gələcəkdə ətin qiymətində daha çox bahalaşma olacaq: "Qısamüddətli tədbirlər üçün isə ətin idxal prosesi sadələşməlidir. Belə ki, ətin idxal olunması üçün müəyyən müddətə gömrük rüsumları azaldılmalı, ya da ümumiyyətlə ləğv olunmalıdır. Bazara xaricdən ucuz qiymətə ət idxal olarsa, qiymətlər özü-özünə tənzimlənər".


Azər Badamov

### ƏT MƏHSULLARININ QİYMƏTİNİN BAHALAŞMASI ARTIQ REALLIQDIR

Aqrar sahə üzrə ekspert Rəcəb Orucov dedi ki, istehlak bazarında ət məhsullarının qiymətinin bahalaşması artıq reallıqdır: "Etiraf etmək lazımdır ki, bu gün bir çox iri intensiv heyvandarlıq təsərrüfatlarının bəziləri artıq öz fəaliyyətlərini dayandırıb. Səbəb aldıqları yemin dəyərinin bahalaşmasıdır. Biznesdə tələblə təklif arasında formalaşan konyunktura bazarın tələblərini müəyyənləşdirir. Səbəbləri həmişə yemlə əlaqələndirirlər, yemin də qiymətinin qalxmasının obyektiv və subyektiv səbəbləri var. Bu da heyvandarlıq məhsullarına, xüsusən də ətə təsir edir".

Ekspertin sözlərinə görə, heyvandarlıqdan normal gəlir götürmək mümkün olsa, bu halda hər şey qaydasına düşər: "Rayon yerlərində ailə fərdi təsərrüfatlarında heyvandarlığın inkişafı üçün müəyyən stimullar yaradılsa, bu məsələ özünü çox da qabarıq göstərməz".

## BUGÜNKÜ ŞƏRAİTİN UZUN MÜDDƏT DAVAM ETMƏSİ...

R.Orucov ət qıtlığı olacağını düşünmür: "Ancaq baş sayının azalması, əhalinin də dinamik artımı gələcəkdə istehlak bazarında heyvandarlıq məhsullarına olan tələbatı da artırır. Bugünkü şəraitin uzun müddət davam etməsi yaxın illərdə heyvandarlıq məhsullarının qiymətlərinin bahalaşması ilə özünü göstərəcək. Ət qıtlığı gözlənilmir. Ancaq həyəcan təbili çalmağın artıq vaxtıdır. Çünki heyvandarlığın inkişafı həm kənd yerlərimizdə əhalinin işlə təmin olunması, həm sosial durumun yaxşılaşdırılması istiqamətində atılan bir addımdır".

### ARADAKI FƏRQİ NECƏ KOMPENSASİYA ETMƏLİ?

Müsahibimiz bildirdi ki, bütün sahələrdə istehsalçıların bazara çıxışını asanlaşdırmaq lazımdır: "Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstəririk. Bu şəraitdə qiymət artımına "dur" demək mövcud bazar iqtisadiyyatının tələblərinə uyğun deyil. Burada əsas məsələ istehsalçıların birbaşa satış bazarında, dəyər zəncirində öz yerini tutmasıdır. Rayonlarda istehsal olunan ət məhsulları birbaşa iqtisadi rayonlarda birləşmiş bazarlarda öz əksini tapır. Burada əsas məsələ məhsulu istehlak bazarına çıxaran şəxslərin həmin istehsalçı ilə satış bazarındakı çox ciddi qiymət fərqləridir. İstehsalçıların istehlak bazarına çıxışlarını bir az asanlaşdırmaq yolu ilə aradakı fərqi kompensasiya etmək olar".



ÜÇ ƏSRİN QƏZETİ Kaspi









# KÜL ALTINDA QALAN ŞƏHƏR

İtaliyanın üçüncü, dünyanın 48-ci ən çox səyahət edilən şəhəri olan Pompeyə hər il üç milyona yaxın turist səfər edir. Pompey irsi insanların qədim Roma haqqında anlayışına bu günə qədər də təsir etməkdə davam edir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Pompey İtaliyanın üçüncü, dünyanın 48-ci ən çox səyahət edilən şəhəridir. Bu qədim Roma şəhərinə hər il üç milyona yaxın turist səfər edir. Onlar şəhərin dillərdə dastan olan tarixini gözlə görmək, eramızın 79-cu ilində Vezuvi vulkanının püskürməsi nəticəsində məhv olan xarabalıqlarına tamaşa etmək üçün sərhədlər aşırlar.

Vezuvi vulkanının yaratdığı faciə ilə bağlı şəkillər, filmlər çəkilib, kitablar yazılıb. Alimlər isə artıq qədim şəhərin 80%-ni tədqiq ediblər. Şəhərin xarabalıqları sosial və iqtisadi həyatından tutmuş mədəni və dini inanclara qədər hər şey haqqında məlumat verir.

Pompey hazırda açıq səma altında muzeydir. Muzeyə əsas giriş qapısından daxil olub uzun növbədə gözləyirik. Tarixi ərazini gəzmək üçün 57 avroya ekspert arxeoloqla bələdçi turuna qoşulmaq da, 19-35 avroluq biletlə fərdi səyahət də mümkündür. Yetər ki, bu qədim şəhərin tarixi haqqında məlumatlı olasan. Uzun növbədə durmamaq üçün qabaqcadan onlayn bilet almaq da mümkündür. 18 yaşa qədər gənclər üçün giriş sərbəstdir. Yaşlılar isə hər ayın ilk istirahət günü muzeyə pulsuz daxil ola bilirlər.

## 1700 İL KÜL VƏ LAVA ALTINDA QALIB

Pompeydəki açıq hava muzeyi çox böyükdür. Görməli yerlərlə hərtərəfli tanış olmaq üçün ən azı 4-5 saat vaxt ayırmaq lazımdır. Bu gün Pompey qədim Roma həyatına maraqlı bir baxış təqdim edir. Şəhər və onun faciəvi yox olması ilə bağlı insanlar arasında müxtəlif rəvayət və hekayələr hədsizdir.

Muzey işçilərinin təqdim etdikləri broşürdə qədim şəhər haqqında ilkin məlumatlar ətraflı yazılıb. Eramızdan əvvəl - 7-ci əsrdə qurulan, Neapol körfəzinə yaxınlığına görə mühüm ticarət mərkəzi kimi məşhur olan şəhərin şöhrətli və qaynar dövrü də, 15 dəqiqə ərzində vulkan püskürməsindən yerlə-yeksan olması tarixi də... 18-ci əsrdə Pompeyin xarabalıqlarının tapılması onlara yeni həyat verib və şəhər arxeologiya və qədim tarixə dair tədqiqatlar üçün unikal mərkəzə çevrilib.

Pompey yenidən kəşf edilənə qədər təxminən 1700 il kül və lava altında qalıb. Vezuvi püskürməsi zamanı şəhər tamamilə vulkanik kül təbəqəsi ilə örtülüb və sonda unudulub. Faciə zamanı buradan heç kim sağ qurtula bilməyib. Bəzi adamlar dənizə doğru qaçsalar da, dalğalar tektonik hərəkətlənmələrə görə insanları vulkan tərəfə atıb, onların xilas yolu qalmayıb. Vulkan 18 saatlıq püskürmədən sonra sakitləşəndə şəhərdə insanların çoxu artıq boğulmuş və ya qayaların uçması nəticəsində ölmüşdü. Sağ qalanlar da bir az sonra "isti uçqunlar"ın qurbanı olublar. Muzeydə ölmüş insanların skeletləri nümayiş olunur.

İddialara görə, bu şəhərdə hər cür vəhşiliklər, qorxunc hadisələr yaşanırmış. Ona görə Vezuvi vulkanını Tanrının qəzəbi hesab edənlər də var.

## BƏDİİ VƏ MƏDƏNİ FƏALİYYƏT MƏRKƏZİ

Xarabalıqlar Pompeyin Roma imperiyası dövründə bədii və mədəni fəaliyyət mərkəzi olduğunu sübut edir. Şəhər bir sıra rəssamların, heykəltəraşların və mozaikaçıların evi olub. Pompeydə tapılan freskalar və mozaikalar qədim Romanın bədii üslubları və texnikası, eləcə də şəhərin necə inkişaf edən mədəniyyətə ev sahibliyi etdiyi barədə dəqiq məlumat verir.

Pompey, ənənəvi Roma tanrıları və ilahələri, həmçinin Misir və Şərq tanrılarının kultları da daxil olmaqla bir sıra dini inancların evi kimi də məşhur olub. "Şəhərdə bir çox ictimai və özəl ziyarətgahlar da var idi və tapılan freskalar və mozaikalar əsasən dini səhnələri təsvir edir", - deyə yaxınlıqdakı rus bələdçinin turistlərə məlumatı eşidilir: "Pompey şəhəri qul döyüşləri, qulların bir-birini öldürməsi ilə də məşhur idi. Əhalinin çoxu varlılar, qalanı qullar idi. Vulkan baş verənə qədər Pompey təxminən 20 min əhalisi olan çiçəklənən şəhər idi".



## XARABALIQLAR ARASINDA QALAN VİLLALARIN QALIQLARI

Xarabalıqlar arasında gəzdikcə varlıların villalarının qalıqlarına tamaşa etmək olur. Şəhərdə teatrlar, məbədlər və bazar meydanları da daxil olmaqla indi daşı-daş üstə qalan ictimai binalar olub. Pompeydə öz dövrü üçün inkişaf etmiş mürəkkəb su təchizatı, kəhrizlər və kanalizasiya sistemi qurulub. Küçələr boyunca gəzdikcə dükanların və xidmət obyektlərinin dağıntılarına, çörək bişirən sobalara, əl dəyirmanlarına, hamamlara, su hovuzlarına rast gəlmək olur. Xarabalıqlar arasında gəzdikcə Neronun ikinci arvadı Poppaeanın qohumlarının evinə baş çəkir, Roma aristokratlarının nəyə qadir olduğunu öyrənir və o dövrün həyatına qərq olursan.

Pompeyin əsas meydanı şəhər həyatını əks etdirir: siyasət, din və iqtisadiyyat.... Burada turistlər Pompey forumunun və bazarının funksiyaları haqqında öyrənir, şəhərin ən qədim məbədini görür və Pompeyin heyrətamiz mənzərələrinə heyran olurlar.

Turistlər həmçinin Pompeyin mədəni həyatı haqqında hər şeyi öyrənirlər. Böyük və kiçik teatrın necə qurulduğu, hər birində pompeylilərin nələrə tamaşa etdiyi, akustikası və ziyarətçilərin necə yerləşməsi haqda məlumat əldə edirlər. "Pompey amfiteatrı hətta Roma Kolizeyindən də qədimdir. 20 min tamaşaçı tutub. Ənənəyə görə, qadınlar ən yüksək pillədə oturublar" - deyə bələdçi bildirir.

## POMPEYDƏN HEÇ NƏ ALMAMALI

Bu gün Pompey sosial və iqtisadi strukturlardan tutmuş bədii və dini inanclara qədər hər şey haqqında məlumat verən qədim Romadakı həyata unikal bir pəncərədir. Şəhərin zəngin mədəni həyatı var. Teatrlar, opera mərkəzləri, qədim kilsələr, hotellər, italyan mətbəxinin dadını təqdim edən restoranlar, kafeteriyalar, pizzeriyalar, suvenir dükanları... Amma turistlər şəhər haqqındakı rəvayətlərdə "özünlə pis aura aparmamaq üçün Pompeydən heç nə almamalı", - deyə sosial şəbəkələrdə yazılan rəyləri də unutmurlar. Hətta belə rəylərdən sonra bu şəhərdən aldıqları suvenirlərdən imtina edənlər də olub. Bununla belə, dünyanın hər yerindən turistlər qədim Roma tarixini görmək və təəssüratlarını duymaq üçün ilin bütün fəsillərində bu şəhərə üz tuturlar...





## SOCAR-da talassemiyalı uşaqlar üçün aksiya keçirilib

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə başladılan “Talassemiyasız həyat naminə” proqramı çərçivəsində Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Baş ofisinin inzibati binasında növbəti qanvermə aksiyası keçirilib. “Report”un SOCAR-a istinadən verdiyi məlumata görə, talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqlara köməklik göstərmək məqsədilə könüllü olaraq “Qan ver, həyat xilas et!” devizi altında keçirilən xeyirxah aksiyada hər il olduğu kimi, bu il də SOCAR əməkdaşları fəallıq göstəriblər. Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya institutunun tibb personalının iştirakı ilə həyata keçirilən aksiyada “SOCAR Tower” də çalışan əməkdaşlar qan veriblər. SOCAR-ın bütün idarə və müəssisələrində təşkil olunacaq aksiya 2024-cü ilin 30 aprel tarixinə qədər davam edəcək.
Qeyd edək ki, SOCAR “Talassemiyasız həyat naminə” proqramına 2009-cu ildən qoşulub və aksiyalarda ümumilikdə 41 min nəfərə yaxın SOCAR əməkdaşları iştirak ediblər.

# Müharibə veteranlarına təqaüdün artırılması müzakirə OLUNACAQ




“Hər büdcə ilinin imkanları çərçivəsində bu məsələlərə baxılır. İstisna deyil ki, növbəti il üçün də bu məsələlərə baxılacaq”.

Milli Məclisdə büdcə müzakirələri zamanı müharibə veteranlarına verilən təqaüdün artırılması gündəmə gətirilib. Məsələ ilə bağlı dünən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında rəsmi mövqe açıqlanıb.

### TƏQAÜDLƏRİN MƏBLƏĞLƏRİ HƏR İL ARTIRILIB

“Report” xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişov komitənin iclasında bildirib ki, son 4 ildə Azərbaycanda aparılan islahatlar çərçivəsində minimum əməkhaqqının, minimum pensiyanın, müxtəlif sosial ödənişlərin, müavinətlərin və təqaüdlərin məbləğləri demək olar hər il artırılıb.

### MƏSƏLƏ MÜNTƏZƏM MÜZAKİRƏ OLUNUR

Onun sözlərinə görə, bu məsələ müntəzəm şəkildə Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyində müzakirə olunur: “Hər büdcə ilinin imkanları çərçivəsində bu məsələlərə baxılır. İstisna deyil ki, növbəti il üçün də bu məsələlərə baxılacaq. O cümlədən, müharibə veteranlarına təqaüdün məbləğinin artırılması məsələləri müzakirə olunacaq. Lakin müharibə veteranlarına verilən təqaüdün məbləğinin kommunal, nəqliyyat xərcləri ilə əlaqələndirilməsi məsələsini məqsədəuyğun hesab etmirik. Çünki 2019-cu ildə kommunal və nəqliyyat xərclərinə görə müavinət ləğv olunub, onun əvəzinə müharibə veteranlarına verilən təqaüd təsis olunub və məbləği 80 manatdır”.

### MƏBLƏĞ XƏRCİ ÜSTƏLƏYİR

H.Məmişov vurğulayıb ki, Dövlət Statistika Komitəsinin 2022-ci il üzrə statistik məlumatlarına əsasən, istehlak xərclərinin tərkibində su, işıq, qaz və digər yanacaq növlərinə görə xərclər təxminən 27 manat 17 qəpik, nəqliyyat xərclərinə görə 21 manat 85 qəpik və rabitə xərclərinə görə 11 manat 20 qəpik, ümumilikdə isə bir nəfər üçün 60 manat 22 qəpik məbləğində müəyyən edilib. Hazırkı təqaüdün məbləği qeyd edilən xərci 33 % üstələyir.

# “Milyon illər sonra görüşdük”



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Azərbaycan və İtaliya arasında inanılmaz mehriban münasibətlər mövcuddur. Poeziyanı bir həyat yolu, səyahət və macəra kimi yaşayan Nəsimi ilə Dantenin vətəni olan bu torpaqlar bəşəriyyətin canlı və dərin dili olan “şeir dilində danışmağa” davam edir”.
Gənc italyan şairlərinin Azərbaycanda tanınmasına və Azərbaycan poeziyasındakı son tendensiyaların İtaliyada təbliğinə yönəli təşəbbüs olan “Milyon illər sonra görüşdük” antologiyasının təqdimatında səslənən bu fikirlər iki dost ölkənin poeziya üfüqlərinə gənc şairlərin töhfəsidir.
Nəşrlə bağlı ideya şair Davide Rondoninin 2019-cu ilin sentyabrında Bakıda keçirilən “Nəsimi - şeir, incəsənət, mənəviyyat” adlı festivalda iştirakı zamanı yaranıb. Antologiyanın italyan hissəsi şair Davide Rondoninin, Azərbaycan hissəsi isə “SÖZ” layihəsinin rəhbəri, şairə Nigar Həsənzadənin kuratorluğu ilə nəşrə hazırlanıb.



### İNDİ BİZ FƏRQLİ SAHƏDƏN DANIŞIRIQ

İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffurinin iqamətgahında reallaşan təqdimatda diplomat qeyd etdi ki, Azərbaycanla İtaliya arasında əlaqələr daha dərin tarixə əsaslanır: “Bu layihə bir tərəfdən maraq doğurur ki, Azərbaycanla İtaliya arasındakı əməkdaşlıq yalnız iqtisadi, ticari deyil, həm də mədəni əlaqələrdir. İndi biz neft və qaz sahəsindən fərqli sahədən danışırıq. Bu nəşrdə iki ölkənin tanınmış gənc şairlərinin şeirləri təqdim olunur. Hesab edirəm ki, şeir və şeriyyət bir xalqın hisslərinin özünüifadə formasıdır”.
Şairə Nigar Həsənzadə antologiyanın nəşrinə göstərdiyi dəstəyə görə səfirliyə təşəkkürünü bildirdi: “Hər iki antologiyanın Azərbaycanda və İtaliyada iki dildə nəşr olunması gənc müəlliflər arasında tanışlıq, həmçinin gələcəkdə qarşılıqlı yaradıcılıq işləri üçün yeni imkanlar açacaq”.
Tədbirdə şairlərin Azərbaycan və italyan dilində şeirləri səsləndi.

# “Cofee`N Joy” Karyera Vizyonerləri Forumunun dəstəkçisi oldu

Qəhvəsevərlərin seçimi olan “Coffee`N Joy” markasının təşkilatı dəstəyi ilə Nizami Kino Mərkəzində karyerasını qurmaq və inkişaf etdirmək istəyənlər üçün Karyera Vizyonerləri Forumu təşkil edilib.
Təşkil olunan tədbirdə 5 əsas istiqamət üzrə yaradıcılıq, innovativlik, HR talant, karyera və təcrübə ilə əlaqədar çıxışlar olub.
Hər zaman gənclərin fərdi inkişafı, sağlamlığı və təhsilinə xüsusi həssaslıqla yanaşan “Coffee`N Joy” tədbir çərçivəsində ziyarətçiləri qəhvəyə qonaq edib.
Qeyd edək ki, ölkəmizdə gənclər üçün təşkil edilən müxtəlif tədbirlərə dəstək verən “Coffee`N Joy” markası bazarına daxil olduğu gündən qəhvə həvəskarlarının sevgisini qazanmağı bacarıb.



RUSİYA BAZARINA İÇKİ İXRACINI DAHA DA ARTIRMAQ İMKANIMIZ VAR

# YÜKSƏK GƏLİR VƏD EDƏN SAHƏ

**Azərbaycan məhsulları keyfiyyətinə və qiymətinə görə, həm MDB məkanında, həm də dünya bazarında rəqabət apara bilər. Bunun üçün potensial vəgeniş imkanlar var.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İqtisadi İslahatların Təhlili Mərkəzinin "İxrac İcmalı"nın oktyabr sayında qeyd edilir ki, cari ilin ilk doqquz ayı ərzində spirtli və spirtsiz içkilərin ixracı 3,3 dəfə artıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, spirtli içkilər üzrə 2022-ci ildə əldə edilən gəlir 7 891.4 min dollar, 2023-cü ildə isə 18 653.3 min dollar olub. Təxmini artım 2.4 dəfədir. Spirtsiz içkilər üzrə isə bu rəqəm 2022-ci ildə 6 387.1 min dollar, 2023-cü ildə isə 29 131.7 min dollar təşkil edib. Burada təxmini artım 4.6 dəfədir.

Göründüyü kimi, ixrac rəqəmləri müsbətdir. Bəs bu rəqəmlər sözügedən sahənin gələcəyi üçün nələr vəd edir?

### RUSİYA AZƏRBAYCAN MƏHSULLARINA MÖHTAC QALIB

İqtisadçı ekspert Xalid Kərimlinin sözlərinə görə, idxal rəqəmləri iki səbəbdən artır: "Əvvəlki illərlə müqayisədə alkoqollu və alkoqolsuz içkilərin həm idxalında, həm də ixracında artım müşahidə olunur. Səbəblərdən ən başlıcası Rusiya-Ukrayna müharibəsi fonunda bəzi markaların, brendlərin Rusiyadan çıxmasıdır. Bu da onların oxşarları və alternativlərinin Azərbaycan bazarından idxal edilməsinə gətirib çıxarıb. İkinci səbəb isə budur ki, sahibkarlar xaricə ixrac istiqamətində işlərini fəallaşdırıblar".

### DÜNYA BAZARINDA DA RƏQABƏT APARA BİLƏRİK

X.Kərimlinin fikrincə, artım rəqəmləri çox da böyük deyil: "Hesab edirəm ki, bu göstəriciləri dəfələrlə artırmaq imkanlarımız var. Yəni ixrac potensialı pikə çatmayıb. Azərbaycanda müxtəlif meyvə şirələri var ki, dünya və MDB bazarına çıxarılır. Azərbaycan məhsulları həm keyfiyyətinə, həm də qiymətinə görə MDB məkanında da, dünya bazarında da rəqabət apara bilər. Amma iki qonşu dövlət - həm Gürcüstan, həm də Ermənistan bu sahədə bizi dəfələrlə qabaqlayırlar. Gürcüstan şərabları, Ermənistan da konyakları ilə məşhurdur. Bizim rəqəmdən dəfələrlə artıq dünya bazarına spirtli içki ixrac edirlər. Düşünürəm ki, biz də artım tempini saxlaya bilərik. Amma potensial Rusiya bazarına ixracın daha da artırılmasına imkan verir".




### İXRAC SUBSİDİYALARINI ARTIRMAQ OLAR

E.Qəribli düşünür ki, bu sahəyə diqqət artırılmalıdır: "Məhz ixracyönümlü olduğuna görə ixrac subsidiyalarını da artırmaq olar. Bu isə öz növbəsində həmin sahələrin inkişafına təkan verəcək. Bildiyimiz kimi, Qarabağ bölgəsi xüsusən spirtli içkilərdə ixtisaslaşıb. Burada xüsusi üzüm sortları var idi ki, məhz bu ərazilərə aid idi. İnanıram ki, bu ərazilər daha çox əkilib becərilərsə, imkanlarımız daha da genişlənər. Gələcəkdə həm spirtli, həm spirtsiz içkilərin ixracatında geniş imkanlar yaranacaq".

## İXRACI TƏŞVİQ ETMƏK İSTƏYİRİKSƏ...

Ekspert bildirdi ki, ixracı daha da artırmaq üçün bu sahədə çalışan sahibkarlara dəstək məqsədilə müəyyən addımlar atılmalıdır: "İxracın artırılmasını sahibkarlar təşkil edirlər. Sadəcə, Azərbaycanda ixracı təşviq mexanizmləri kifayət qədər yaxşı deyil. Bu baxımdan ixracyönümlü iqtisadiyyatın qurulması lazımdır. İxracyönümlü iqtisadiyyat istiqamətində vergi, gömrük məcəlləsi də tənzimlənməlidir. Sahibkarların dövriyyə kapitalının əlindən çıxmaması üçün ixrac şirkətlərinə bu sahədə müəyyən müddətlik güzəştlər edilməlidir. Təşviq etmək istəyiriksə, müxtəlif ticarət evləri təşkil etmək olar. Azərbaycan hökumətinin hesabına ticarət evləri, sərgilər qurula bilər. Hökumət bunu maliyyələşdirməlidir ki, sahibkarlar xarici tərəfdaşlarını tapsın".

### BU SAHƏDƏ İXTİSASLAŞA BİLƏRİK

İqtisadi məsələlər üzrə mütəxəssis Emin Qəribli isə qeyd etdi ki, bazarda yaranan fürsətlərdən yararlanaraq daha da inkişaf edə bilərik: "Qeyri-neft sektorunun inkişafına dair dövlət proqramları qəbul olunub. Bu səbəbdən dinamika var idi və spirtsiz içkilərdə ixtisaslaşırdıq. Qeyri-neft ixracatında şirələr mühüm rol oynayırdı. Son dövrlər tələbat artdıqca, bizim məhsullarımız Rusiya və digər bazarlara ixrac olunur. Hətta Avropa bazarlarına da çatdırırdıq. Onu nəzərə alaq ki, Rusiya bazarına müəyyən sanksiyalarla əlaqədar bir neçə şirkət məhsul ixrac etmir və ona görə imkanlar genişdir. Hesab edirəm ki, xüsusən də spirtsiz içkilərdə artıq ixtisaslaşırıq. İndi bazar genişlənir, tempi saxlaya və artıra biləcəyik. Potensialımız yüksəkdir, perspektiv çoxdur".


Xalid Kərimli
Emin Qəribli

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 3012
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# NƏ YAZIBSA, HAMISINI GÖZƏL YAZIB

**18 noyabr Emin Sabitoğlunun xatirə günüdür. Bəstəkarın sənət yoldaşlarının, dostlarının onun haqqındakı xatirələri də yaradıcılığı qədər qiymətlidir.**

HAZIRLADI

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

Azərbaycan mahnı janrının ən nadir inciləri Emin Sabitoğlunun adı ilə bağlıdır. Çox sayda kinofilm və teatr tamaşası üçün yazdığı yaddaqalan melodiyalarla yaratdığı unudulmaz bədii lövhələr musiqi sənətimizi rövnəqləndirib. Azərbaycanın mədəniyyət salnaməsi görkəmli bəstəkarın yaradıcılığı ilə xeyli zənginləşib.

18 noyabr Emin Sabitoğlunun xatirə günüdür. Bəstəkarın sənət yoldaşlarının, dostlarının onun haqqındakı xatirələri də yaradıcılığı qədər qiymətli və şirindir.

**YÜKSƏK NƏCABƏT, XEYİRXAHLIQ VƏ SƏMİMİLİK**

Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru İmruz Əfəndiyeva “Bizim atalarımız dost olublar və sonralar Eminlə Bakı Musiqi Akademiyasında birgə çalışmışıq”, - deyə Emin Sabitoğlunu “unudulmaz və qəlblərdə yaşayan insan kimi xatırlayır: “Atası Sabit Rəhmanın daxilində olan yüksək nəcabət, xeyirxahlıq və səmimilik Eminə də keçmişdi. Emin Konservatoriyanın xor-dirijorluq, mən isə musiqi nəzəriyyəsi kafedrasında işləyirdik. Eminin güclü, yüksək səviyyəli müəllimləri olub”.

E.Sabitoğlu Bülbül adına Orta İxtisas Musiqi Məktəbini, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini - dahi müəllim və bəstəkar Qara Qarayevin sinfini bitirib. Sonra təhsilini P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında, görkəmli rus bəstəkarı Yuri Aleksandroviç Şaporinin sinfində davam etdirib.

**MUĞAM VƏ AŞIQ MUSİQİSİNƏ SÖYKƏNƏN MUSİQİLƏR**

İ.Əfəndiyeva Emin Sabitoğlunun mahnı yaradıcılığını yüksək dəyərləndirir: “Qarşımda Eminin dörd məcmuəsi var: “Lirik mahnılar”, “Dərələr”, “Bakı, sabahın xeyir!”, “Gözümdə Leylisən!” Bu mahnıların hər biri mənim üçün əziz və doğmadır. Bu mahnıların musiqisi bizi yaşadır, həyatımızı zənginləşdirərək işıqlı yol açır. Eminin mahnılarının üslub xüsusiyyətləri ilk növbədə milli ənənələrimizə - muğam və aşıq musiqisinə söykənməsidir. Emin Sabitoğlu əsl bəstəkar-novatordur”.

**O QƏDƏR ZARAFATCIL İDİ Kİ...**

Xalq artisti Flora Kərimova bəstəkarın mahnılarının ən yaxşı ifaçılarından olub. Onun yaddaşında Emin Sabitoğlu bütün zamanların ən uğurlu və sevilən bəstəkarıdır: “Tofiq Quliyev, Zakir Bağırov, Oqtay Kazımı kimi bəstəkarların musiqisindən sonra estradanı bəyənmək çox çətin idi. Amma Emin o illərin peşəkar səviyyəsini qoruyub saxlayan, hörmət qazandıran bəstəkarlardan oldu. Eminlə Oqtay bugünkü estradanın sütunlarından biri idi”.

Flora xanım bəstəkarı zarafatcıl, yüksək yumor hissinə malik insan kimi xatırlayır: “Eminin gözəl xasiyyəti vardı. Şəki yumoru ilə ən çətin mübahisələri yoluna qoyurdu. Bəzən sənət aləmində kimsə bir-biri ilə dil tapmırdı, sənətçilər arasında münaqişələr olurdu. Emin belə məsələləri yumor hissi ilə həll edirdi. Musiqi bəstəkarın həyatıdır. Emin o qədər zarafatcıl idi ki, onun həyatdan məmnun olub-olmadığını bilmək olmurdu. Onu oxumaq mümkün deyildi”.

**MÜĞƏNNİ SEÇİMİNDƏ YANILMIRDI**

Müğənni Emin Sabitoğlunu öz yaradıcılığına hörmət edən sənətkar kimi dəyərləndirir: “O vaxtlar dinləyicilər təkcə musiqinin məftunu olmur-dular. Onlar musiqini yaradan müəlliflərin həyatda kim olduğunu, şəxsiyyətlərini, xasiyyətlərini də bilirdilər. Bəstəkarları müğənninin sənəti cəlb edirdi. Mən Eminin bir çox mahnısını oxuyurdum. Artıq onunla şəxsi dostluq münasibətim də formalaşmışdı. Emin “Hansı səsə, hansı ürəyə malik səsə yazım”, - deyə düşünürdü. O, müğənninin qabiliyyətini nəzərə alıb yazırdı. Hər müğənniyə ürək açıb mahnı vermirdi. Mən Eminin orta qabiliyyətli müğənniyə üz tutduğunu görməmişəm. Düzdür, hamı ilə eyni münasibəti vardı, amma müğənni seçiminə çox həssas yanaşırdı. Seçimində yanılmırdı da. Çünki zövqü gözəl idi. Pianoda da gözəl ifa edirdi. O çalanda elə bil orkestr ifa edirdi. Musiqini elə yazırdı, elə bil muncuq düzürdü. Xalq çalarlarına hörmət edirdi. Bu, hər bəstəkarın yaradıcılığında rast gəlinmir. Həmişə özünə deyirdim: sənin musiqində şeytan tükü var. Onun musiqisini qəbul etməmək qəbahət idi. Bu, insanın öz zövqünə şübhə yaradırdı. Eminin musiqisi xoşuna gəlmədisə, demək problem sənin zövqündədir”.

F.Kərimova deyir ki, Emin Sabitoğlunun elə bir musiqisi yoxdur ki, dinləyicilər xoşlamasın: “Eminin operettalarının hər parçası bir mahnı idi. İşbirliyimizdə Emin heç vaxt mənə “bunu belə və ya elə oxu” deməyib. O, mənim ifama qarışmırdı. Bəzən sözləri dəyişirdim, ya musiqinin dəyişməsini istəyirdim, heç vaxt etiraz etmirdi. Bir ifaçı kimi mənə bu ixtiyarı verirdi”.

> “Bir gün Tofiq Quliyev dedi ki, Emin, sənə simfoniya, opera yazmaq lazım deyil. Sən o qədər gözəl mahnılar, kino və tamaşa musiqiləri yazırsan ki, bunlar bizə bəsdir.”

**MELODİYA GÖZƏL OLANDA...**

“Azərbaycanda elə bir tanınmış müğənni yox idi ki, onun yazdığı mahnını oxumasın. Gülağa Məmmədov, Anatollu Qəniyev, Akif İslamzadə, Hüseynağa Hadıyev, Şövkət Ələkbərova, Rəşid Behbudov, Flora Kərimova...”, - deyə Xalq artisti Faiq Sücəddinov xatırlayır: “Emin Sabitoğlu gözəl əsərlər yazıb. Nə yazıbsa, hamısını çox gözəl yazıb. Melodiya gözəl olanda hər şey gözəl olur. Eminin bəzi əsərlərini vaxtilə estrada orkestrində aranjeman etmişəm. Bir gün Tofiq Quliyev dedi ki, Emin, sənə simfoniya, opera yazmaq lazım deyil. Sən o qədər gözəl mahnılar, kino və tamaşa musiqiləri yazırsan ki, bunlar bizə bəsdir. Sənin yaradıcılığında daha çox mahnılar eşitmək istəyirəm. Emin Sabitoğlu xoşbəxt bəstəkar idi. Onun musiqiləri bu gün də sevilə-sevilə oxunur, instrumental olaraq çalınır. Emin Sabitoğlunun mahnıları həmişə səslənəcək, eşidiləcək və seviləcək”.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
18 NOYABR ŞƏNBƏ 2023
www.kaspi.az



Rıza Çalımbay

"Beşiktaş" Super Liqada 12 turdan sonra beşinci pillədədir. Düzdür, komanda üçüncü yerdə olan "Adana Demirspor" və dördüncü "Trabzonspor"la eyni - 22 xal toplayıb. Lakin İstanbul klubu əzəli rəqibləri "Qalatasaray" və "Fənərbağça"dan doqquz xal geri düşüb.

## KLUB DAXİLİNDƏ BÖYÜK PROBLEMLƏR

Komandadakı qısamüddətli fəaliyyəti barədə yerli mətbuata danışan Burak Yılmaz klub daxilində böyük problemlərin olduğunu dilə gətirib. O, xüsusən, legioner oyunçuların işə yanaşmasından gileylənib. Rəhbərlikdən də narazı olan mütəxəssis postundan uzaqlaşdırılmasından çox az müddət sonra Rıza Çalımbayın baş məşqçi təyin edilməsini təəccüblə qarşıladığını bildirib. Çalımbay isə işinə qələbə ilə başlayıb. Futbolçu kimi "ağ-qara" formanı geyinən, 2005-ci ildə komandanın baş məşqçisi də olmuş 60 yaşlı mütəxəssisin rəhbərliyi altında bu mövsüm ilk oyununu "Başakşehir"ə qarşı keçirən "Beşiktaş" minimal hesablı qalibiyyətə sevinib. Lakin Rıza Çalımbay özü də etiraf edib ki, klub ağır böhran dövründən keçir və bu vəziyyətdən çıxmaq üçün çox çalışmalıdırlar.

# "QARA QARTAL"IN QARA GÜNLƏRİ

Son zamanlar Türkiyənin futbol gündəmini "Beşiktaş" klubu zəbt edib. İstanbul təmsilçisi həm Super Liqada çempionluq yarışından uzaq düşüb, həm də Avropada uğursuzluq yaşayır. Azarkeşlərin kəskin narazılıqları fonunda klub rəhbərliyində dəyişiklik labüdləşib. Ardıcıl baş məşqçi dəyişiklikləri də hələ ki, komandaya fayda vermir. "Qara qartal"ın "qara zolaq"dan çıxması asan görünmür.

### SUPER LİQADA UĞURSUZ START

Super Liqada 12 turdan sonra "Beşiktaş" beşinci pillədədir. Düzdür, komanda üçüncü yerdə olan "Adana Demirspor" və dördüncü "Trabzonspor"la eyni - 22 xal toplayıb. Lakin İstanbul klubu əzəli rəqibləri "Qalatasaray" və "Fənərbağça"dan doqquz xal geri düşüb.

Avropada isə vəziyyət daha acınacaqlıdır. Konfrans Liqasının D qrupunda yer alan komanda növbəti mərhələyə yüksəlmək şansını itirib. "Qara qartal" dörd matçda cəmi bir xal toplaya bilib və qrupda sonuncudur. İkinci yerdə qərarlaşan Norveç klubundan altı xal geri düşən kollektivin pley-offa adlamayacağı dəqiqləşib.


Şenol Güneş

### ÇARƏ OLMAYAN MƏŞQÇİ DƏYİŞİKLİKLƏRİ

Mövsümə Şenol Güneşlə başlayan "Beşiktaş" çox keçmədən onunla yolları ayırıb. Ötən ilin oktyabrında baş məşqçi təyin edilən və tez bir zamanda komandanı çətin vəziyyətdən çıxarmağı bacaran mütəxəssis hətta çempionluq mübarizəsində "Qalatasaray"la "Fənərbağça"ya ciddi müqavimət göstərməyi də bacarıb. "Qara qartal" əzəli rəqiblərindən yalnız iki xal geri qalaraq sonda üçüncü pilləni tutub. Azarkeşlər bu mövsümün daha uğurlu alınacağını gözləsələr də, start istənilən kimi olmayıb. Düzdür, komanda təsnifat mərhələsində uğur əldə edərək Konfrans Liqasının qrup mərhələsində oynamaq hüququ qazanıb. Super Liqada da ilk turlarda vəziyyət pis deyildi. Lakin komanda heç cür stabillik əldə edə bilməyib. Konfrans Liqasında İsveçrənin "Luqano" klubuna məğlubiyyətdən sonra, oktyabrın 10-da Şenol Güneş istefa verib. Güneşi əvəzləyən Burak Yılmazın qısamüddətli fəaliyyəti isə daha uğursuz alınıb. Müvəqqəti çalışdırıcı təyin edilən gənc mütəxəssis komandanı cəmi altı matça çıxarıb. Bunların ikisində qələbə qazanan "Beşiktaş" dörd dəfə məğlubiyyətlə üzləşib. Konfrans Liqasında "Budyo Qlimt"ə yenilgi ilə komandanın növbəti mərhələ şansını itirməsi Burakın da "kredit limitini" doldurması anlamına gəlib.


Burak Yılmaz

## GÜNAH RƏHBƏRLİKDƏDİR?

Çılğın "Beşiktaş" azarkeşləri və türkiyəli mütəxəssislər problemin bu həddə çatmasında klub idarəçilərinin məsuliyyət daşıdığını düşünürlər. Fanatlar hətta bu mövsüm bir neçə dəfə rəhbərliyi istefaya da səsləyiblər. Onların tələbləri yerinə yetmək üzrədir. Noyabrın 26-da "Beşiktaş"a yeni prezident seçiləcək. Əgər ilk iclasda yetərsay olmazsa, bu zaman yekun səsvermə dekabrın 3-də olacaq.

Hazırkı prezident Ahmet Nur Çebi namizəd olmayacağını açıqlayıb. 2019-cu ildən bu postda olan funksionerin dövründə klub xüsusən maliyyə baxımından irəliləyişə nail olub. Lakin onun məşqçilər və futbolçularla kifayət qədər yüksək səviyyədə ünsiyyət qura bilməməsi həmişə Türkiyə futbol gündəmində əsas mövzulardan idi. Nur Çebini əvəzləməyə iki namizəd var: Serdar Adalı və Hasan Arat.


Ahmet Nur Çebi

## DÜZGÜN FORMALAŞDIRILMAYAN HEYƏT

"Beşiktaş" heyətinə görə əsas rəqiblərindən çox geri qalır. Əslində, bunu "Qalatasaray" və "Fənərbağça"nın səviyyəni çox yüksəltməsi ilə də əlaqələndirmək olar. Hər iki klub, xüsusilə son iki mövsümdə o qədər səs-küylü transferlər ediblər ki, "qara qartal" açıq-aşkar bu rəqabətdə onlara uduzub. Məsələn, "Fənərbağça"ya üz tutan Duşan Tadiçlə məhz "Beşiktaş" maraqlanıb. Lakin qarşı tərəf ən azı iki dəfə daha yaxşı maliyyə şərtləri təklif etdiyindən serbiyalı ora üz tutub. Ümumilikdə klubun bu yay heyət planlaşdırmasını doğru etmədiyi də aydındır. Üstəlik, Tadiç transferində xəsislik edən "Beşiktaş" rəhbərliyi yeni cəlb olunan oyunçulara bağlı kifayət qədər səxavətli davranıb. Bu yay komandaya Artur Masuaku, Daniel Amarti, Erik Bayi, Aleks-Oksleyd Çemberleyn, Ante Rebiç, Milot Raşitsa kimi yüksək ödənişli futbolçular transfer olunub. Lakin hələ ki, onların əksəriyyəti meydanda verdikləri faydalardan çox qalmaqallarla gündəmdədirlər. Transfer fəaliyyətinin uğursuzluğuna görə də birbaşa klub rəhbərliyi ittiham olunur. "Beşiktaş" üçün mövsüm hələ bitməyib. Avropada uğursuzluğa baxmayaraq, Super Liqada şanslar qalır. Zamanla "Qalatasaray" və "Fənərbağça"da eniş olması da istisna edilmir. Lakin yeni rəhbərliyin və Rıza Çalımbayın işi heç də asan olmayacaq.


Serdar Adalı


Hasan Arat